

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 12 avqust 2023-cü il №60 (2772) https://mod.gov.az Qiymәti 30 qəpik


## Müdrik rəhbər, qətiyyətli komandan

*Hər bir xalq öz tarixi şəxsiyyətləri, mütəfəkkirləri ilə tanınır. Dahilik səviyyəsinə çatmış şəxsiyyətlər, əslində, mənsub olduqları xalqın milli sərvətidirlər. Azərbaycan xalqı da iyirminci əsrdə belə dahilərdən birini - müdrik siyasətçi Heydər Əliyevi yetirib.*



Azərbaycanın sovetlər birliyinin tərkibində olduğu vaxtda, daha dəqiq desək, 1969-cu ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçiləndə, ona ittifaq rəhbərliyi böyük etimad göstərmişdi. Həmin dövrün də nümunə göstərilən, idarəetmə sistemində örnək olan xüsusiyyətləri vardı. Yəni, partiya rəhbərliyinə hər adam seçilə bilməzdi, məhz liderlik xüsusiyyətləri olan Ulu Öndər Heydər Əliyev bu etimadı doğrultmağa qadir idi. Azərbaycanın ittifaqın geridə qalmış milli respublikalarından biri olması həmin dövrün yaşıdı olan insanların yaxşı yadındadır. Müdrik siyasətçi Heydər Əliyev qısa bir zamanda bütün sahələrin inkişafına nail oldu. Onun təşəbbüsü və təşkilatçılığı ilə iqtisadi əhəmiyyətinə görə seçilən iri sənaye müəssisələrinin Azərbaycanda yaradılması bir tərəfdən respublika əhalisinin iş yerləri ilə təmin edilməsinə şərait yaradırdısa, digər bir tərəfdən millətimizin imzasını millətlər arasında tanıdırdı. Azərbaycanın istehsal etdiyi sənaye məhsullarının sorağı dünyanın inkişaf etmiş ölkələrindən gəlirdi.

Sovetlər dövründə dahi rəhbəri düşündürən ən vacib məsələlərdən biri də milli hərbi ənənələrin formalaşdırılması idi. Bu məqsədlə respublikanın birinci katibi Bakıda keçmiş ittifaq ordusuna məxsus hərbi təhsil müəssisələrinə baş çəkirdi. Belə tədbirlərin birində o, kursantlar arasında azərbaycanlıların azlıq təşkil etdiyini biləndə məyus olur. Deməli, bu haqda dərindən düşünmək, çıxış yolu tapmaq gərək idi. Heydər Əliyev böyük uzaqgörənliklə ucqar bir respublikada hərbi ənənələrin inkişaf etdirilməsinə və gənc nəslin hərbə marağının, vətənpərvərlik tərbiyəsinin gücləndirilməsinə xüsusi diqqət yetirməyi qarşısına məqsəd qoydu. Bakıda ibtidai hərbi məktəbin yaradılması təşəbbüsünün irəli sürülməsi müəyyən siyasi problemlər yarada bilərdi. Axı Mərkəzdəkilər bu məsələnin həllinə mane olmağa çalışmışdılar. Məhz Vətənini, millətini düşünən bir lider belə qətiyyət nümayiş etdirə bildi. Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov başda olmaqla, Azərbaycan Ordusunun əksər zabit heyəti məhz bu hərbi liseyin yetirməsidir. Görün neçə illər öncə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev Azərbaycanın nə vaxtsa müstəqil olacağını və dövlətçiliyin ən vacib atributlarından biri kimi ordunun zəruriliyini düşünmüşdü. Əslində, Cəmşid Naxçıvanski adına hərbi liseyin açılması böyük gələcəyə hesablanmış ən uğurlu siyasi addım idi.

Danılmaz faktdır ki, hər bir müstəqil dövlətin gücü onun ordusu, hərbi qüdrəti ilə sıx bağlıdır. Ordunun formalaşmasında isə bacarıqlı, savadlı zabit kontingenti ən mühüm amillərdəndir və Ulu Öndər Heydər Əliyev Azərbaycanda müasir hərbi təhsil sisteminin bünövrəsini yaratmaqla Silahlı Qüvvələrimizin kadr bazasını formalaşdırdı. Müdrik Komandan daim tövsiyə edirdi ki, zabit peşəsini seçərək taleyini Vətəni qorumağa həsr edən hər kəs nəcib mənəvi keyfiyyətlərə malik olmalı, Vətənə, dövlətçiliyə və xalqa sədaqəti ilə seçilməlidir. Buna görə də Ulu Öndər Azərbaycanda lider səviyyəsinə yüksəldi və haqlı olaraq xalqımız onu Azərbaycan xalqının Ümummilli Lideri kimi daim böyük ehtiramla xatırlayır. Onu Azərbaycanın lideri səviyyəsinə yüksəldən ən başlıca amil qəlbindəki tükənməz Vətən sevgisi, doğma xalqına, millətinə dərin məhəbbəti idi.

1993-cü ildə Azərbaycan xalqının Ümummilli Liderinin yenidən ölkəmizdə siyasi hakimiyyətə qayıdışı, əslində, çox təzadlı bir dövrə təsadüf etmişdi və yaxşı bilirdi ki, bu yolda onu fiziki məhvinə kimi nə qədər çətinliklər, təhlükələr gözləyir. Amma belə bir insan heç vaxt öz xalqını, millətini darda qoya bilməzdi. Siyasi hakimiyyətə yenidən qayıtmaqla, özünün də qeyd etdiyi kimi, ömrünün qalan hissəsini də xalqına, Vətəninə həsr etdi və müstəqil dövlətçiliyimizi gerçək təhlükələrdən qısa bir vaxtda xilas edə bildi. Dövlət başçısı olmaq, dövləti idarə etmək müdriklik, yetərincə siyasi təfəkkür və böyük təşkilatçılıq tələb edən vəzifədir. Məhz Heydər Əliyevdə belə xarakterik xüsusiyyətlər cəmləşmişdi. Azərbaycan, doğrudan da, ikinci dəfə müstəqil dövlətçiliyini bərpa edəndə olduqca ağır və mürəkkəb tarixi şəraitlə üzləşmişdi. Bir tərəfdən müstəqilliyimizi istəməyən xarici və daxili separatçı qüvvələrin təxribatları, digər tərəfdən güclü himayədarına arxalanan işğalçı Ermənistanın sərhəd bölgələrimizə silahlı müdaxiləsi Vətənimizi ağır duruma salmışdı. Xalqın qanı bahasına qazanılan müstəqillik qısa vaxtda itirilə bilərdi və Azərbaycan vətəndaş müharibəsinə düçar olardı. Məhz belə çətin bir dövrdə dahi siyasətçi yenidən dövlət rəhbərliyinə qayıtdı və ölkəmizi ciddi təhlükələrdən xilas etdi.

Azərbaycanı siyasi və iqtisadi böhrandan çıxarmağı bacaran Ulu Öndər tərəfindən müasir ordu quruculuğu strategiyası da işlənib hazırlandı, mərkəzi komandanlıqdan idarə edilən, yüksək döyüş hazırlığına malik Silahlı Qüvvələrimiz yaradılmaqla müstəqil dövlətin suverenliyini və torpaqlarımızı işğaldan qorumağa qadir mühüm müdafiə potensialı formalaşdırıldı.

Bu ənənə 2003-cü ildən etibarən Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən inamla davam etdirilir. Ordu quruculuğunu inkişaf etdirməyi siyasi kursunun başlıca istiqaməti və prioritet məsələ elan edən dövlət başçısı Silahlı Qüvvələrimizin müasir dünya orduları səviyyəsində qurulması üçün ən vacib tədbirlərə əl atır. Ordu hissələri müasir silah və texnikalarla təmin edilir, hərbi qulluqçuların sosial-məişət qayğılarının həll edilməsi istiqamətində ardıcıl işlər görülür. Ali Baş Komandanımız çıxışlarının birində qeyd edib: "Bu gün Azərbaycanda nizami ordu vardır, bu gün Azərbaycan Ordusu ən yüksək səviyyədədir. Ordumuzda peşəkarlıq, döyüş qabiliyyəti artır, Silahlı Qüvvələrdə ruh yüksəkliyi vardır. Bütün bu məsələlər bizi çox sevindirir. Azərbaycanda ordu quruculuğu prosesi bundan sonra da uğurla gedəcəkdir..."

Aprel döyüşlərində, Günnüt zəfərində, Tovuz döyüşlərində və 44 günlük Vətən müharibəsində, eləcə də qələbəmizdən sonra düşmən təxribatlarının qarşısının alınmasında iştirak edən Azərbaycan Ordusunun bölmələri, doğrudan da, qısa vaxtda qəhrəmanlıq nümunəsi göstərdi. Vətənpərvər hərbçilərimiz son nəfəsədək mübarizə aparmaq əzmini nümayiş etdirməklə Azərbaycan əsgərinin döyüş ruhunu cəmiyyətimizə və beynəlxalq aləmə sübut etdilər. İşğalçı Ermənistanın siyasi və hərbi rəsmiləri bir daha anladılar ki, artıq Azərbaycan Ordusu regionun ən güclüsüdür, ərazi bütövlüyünü qorumağa və istənilən təxribatı qələbə ilə tamamlamağa qadirdir.

Tarixi qələbələrimizi təmin edən əsas amil məhz Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən işlənib hazırlanmış ordu quruculuğu strategiyasının müasir dövrdə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən uğurlu davamıdır. Buna görə də Ulu Öndərin zəngin və çoxşaxəli irsi Azərbaycan Ordusu tərəfindən dərindən öyrənilir. Onun mənalı ömür yolu hər kəsə nümunədir.

**"Azərbaycan Ordusu"**

# Azərbaycanın müdafiə naziri Türkiyə tərəfinə başsağlığı verib

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyə Respublikasının milli müdafiə naziri cənab Yaşar Gülərə başsağlığı ünvanlayıb.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, başsağlığında deyilir: "Bölgədəki terror təhlükəsini zərərsizləşdirmək, ərazidə yaşayan mülki insanları terror hücumlarından və təhdidlərindən qorumaq məqsədilə qardaş Türkiyə Silahlı Qüvvələrinin həyata keçirdiyi "Pençe-Kilit" antiterror əməliyyatlarının aparıldığı bölgədə şanlı türk ordusunun hərbi qulluqçularının şəhid olması və yaralanması xəbərləri məni çox kədərləndirir.

Sizin acınız bizim də acımızdır.

Şəhid hərbi qulluqçulara rəhmət diləyir, yaxınlarının dərdlərinə şərik olur, ailələrinə dərin hüznlə başsağlığı verirəm. Bütün yaralılara Tanrıdan şəfa diləyirəm.

Allah rəhmət eləsin".

*Şərh*

# Müsahibə dövlətçiliyin qətiyyəti kimi tarixləşdi

Dövlət müstəqilliyi bərpa edildikdən sonra Azərbaycanla ikitərəfli, çoxtərəfli münasibətlər yaranmağa başladı. Tarixi dövlətçilik ənənələrinə malik olan bir dövlətlə əlaqələr dünyəvi münasibətlər əsasında, beynəlxalq hüququn normalarına istinad edilməklə davam edirdi. Bəşəri niyyətlərdən uzaq dövlətlər üçün belə siyasi münasibətlər olmur. Belə dövlətlərin xarici siyasəti işğala meyillilikdir, işğalçılıqdır. Müttəfiq respublikalar hələ Moskvanın siyasi cazibəsində olduğu dövrlərdə də bu siyasi niyyətini həyata keçirməyə çalışırdı. Keçirirdi də. Ermənistan Azərbaycanın torpaqları hesabına sərhədlərini genişləndirirdi.

90-cı illərdə Azərbaycana qarşı olan ərazi iddiası elan edilmədən başlayan müharibəyə səbəb oldu. Nə BMT-nin Təhlükəsizlik Şurası, nə də ATƏT-in Minsk Qrupu səlahiyyətlərindən istifadə edə bilmədi (bəlkə də istifadə etmək istəmədi). 2020-ci il sentyabrın 27-də əks-hücum əməliyyatı kimi başlayıb Vətən müharibəsi kimi davam edən döyüşləri Azərbaycan Ordusu qələbə ilə sonlandırdı...

Tarixən bütün müharibələr razılaşma ilə nəticələnib. Azərbaycan Ordusu düşmənin illərlə qurduğu, möhkəmləndirdiyi, təkmilləşdirdiyi sədləri ("Ohanyan səddi"ni) darmadağın etdi, ilkin mövqe qələbələri qazandı. Noyabrın 8-də Şuşanı işğaldan azad etdi. Üçtərəfli Bəyanat imzalandı. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Şuşada "Euronews" televiziya kanalına müsahibəsində də qeyd etdiyi kimi, 2020-ci il noyabrın 10-da imzalanmış sənəd Bəyanatdır, sülh razılaşması deyil, bu, Ermənistanın məğlubiyyət sənədidir.

Bu müsahibə 44 günlük Vətən müharibəsinin xarakterini, üçtərəfli bəyanatın mahiyyətini, nəticələrini, sonrakı vəziyyəti - qalib və məğlub dövlətlər arasındakı münasibətlər haqqında dövlətin münasibətini ifadə edən müsahibə kimi tarixləşdi.

Bəyanatda ifadə edilən razılaşma şərtlərini qalib Azərbaycan dövləti müəyyənləşdirmişdi. Razılaşma şərtlərinə ərazi bütövlüyünün, suverenliyin və beynəlxalq sərhədlərin qarşılıqlı tanınması, sərhədlərin delimitasiyası, gücdən istifadə etməmə və ya güclə təhdid etməmə kimi beynəlxalq hüququn tam məlum prinsipləri daxil edilib. Bu sənəd dünyəvi nizamın mahiyyəti baxımından gerçək hüquqi şərtlərdir. Bu şərtləri dünyanın aparıcı dövlətləri də bəyəndi. Müxbirin verdiyi suallar Azərbaycan gerçəklikləri haqqında daha geniş informasiya almağa yönəldilmişdi. Cavablar müxbirin istəyini dolğunluğu ilə əhatələdi: "Azərbaycan 30 illik işğaldan əziyyət çəkmiş və ədaləti güc hesabına bərpa etmiş ölkə olaraq yeni sülh prosesinin müəllifi oldu...", "Azərbaycan ədaləti və ərazi bütövlüyünü bərpa etdi. Müharibə uğurla başa çatdı. Biz bir çox amillərə baxmadan müharibədə qalib gəldik: siyasi amillərə, bizim hərbçilərimiz üçün bir necə müdafiə səddinin qırılmasını çətinləşdirən işğal edilmiş ərazilərdə uzunmüddətli infrastruktur layihələrinin olması amillərinə baxmadan. Bəzi yerlərdə onların minalarla dolu beş, digər yerlərdə isə yeddi müdafiə səddi var idi". Azərbaycan Ordusu Ermənistanın illərlə hazırlaşdığı taktiki (hərbi) mühəndis-istehkam və fortifikasiya sistemini darmadağın etdi.

44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun qazandığı tarixi Zəfər Azərbaycanın siyasi nüfuzunu da artırdı, dünya dövlətlərinin əksəriyyətinin ehtiramını da, siyasi əlaqələri də möhkəmləndirdi, iqtisadi əlaqələrin coğrafiyasını da genişləndirdi. Bu müharibə, müharibənin sonluğu bölgədə siyasi münasibətlərə də təsir göstərdi. Ədalətli müharibə aparan Azərbaycana da, işğalçı Ermənistana da münasibətlərdə ciddi dəyişikliklər yaratdı. İşğalı dəstəkləyənlər də bəlli oldu, bəşəriliyi yaşadanlar da, Azərbaycan gerçəkləri ətrafında yaşanılanlar da, təxribat törətmək istəyən Ermənistana yarınmaq üçün müxtəlif əsassız siyasi bəyanatlar verən meyillər də. Bu nöqteyi-nəzərdən dövlət başçımız dedi: "İkinci Qarabağ müharibəsinin bitməsindən təxminən iki il sonra Laçın dəhlizi adlandırılan yol işğal vaxtında işləyən qaydada fəaliyyətini davam etdirmişdir. Bir fərq var idi. O, rus sülhməramlılarının nəzarəti altında idi və bu, üçtərəfli Bəyanatın bir hissəsi idi. Fəaliyyətdə dayanma yox idi. Bizim tərəfimizdən müdaxilə etmək addımı da yox idi".

Beynəlxalq təşkilatların missiyası nədir? Sülh, yaranmış vəziyyəti sülhə yönəltmə, dinc yanaşı yaşamanın təmini üçün bütün dünyəvi prinsiplərdən istifadə etmək, bunları həyata keçirməyə çalışmaq. Bu gün də Ermənistanın işğalçılığı onlar üçün də bir problem olmamalıdır.Bu missiya qarşısında tərəfsizlik prinsipi ilə fəaliyyət göstərmək. Bu fəaliyyət dürüstlük, doğruluq, aşkarlıq əsasında tənzimlənməlidir ki, gerçək nəticə əldə edilsin. Təəssüflər ki, həmişə belə olmur. Beynəlxalq Qırmızı Xaç Komitəsi Ermənistanın işğalçılıq siyasətinə bələddir, üçtərəfli Bəyanat imzalanandan sonra revanşizmə meyillənən (bu meyil müharibədir!) Ermənistanın bölgədə, Kəlbəcərdə, Laçında törətdiklərini də görür, ancaq buna ciddi münasibət bildirmir, hətta ona İkinci Qarabağ müharibəsindən sonra da müxtəlif səviyyələrdə qayğı ilə yanaşmaqdadır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "Euronews" televiziya kalanına müsahibəsində belə bir mühüm məqamı da diqqətə çatdırdı: "Qırmızı Xaç Komitəsinin qanunsuz əməlləri aşkar olundu. Qırmızı Xaç Komitəsinin yük maşınlarının yoxlanılması zamanı siqaret, iPhonelar və benzin kimi məhsulların qaçaqmalçılıqla keçirilməsi aşkar olundu. Qırmızı Xaç Komitəsi bunu etiraf etdi və bildirdi ki, onlar buna görə heç bir məsuliyyət daşımırlar. Qırmızı Xaç Komitəsinin Qarabağdakı ofisi Bakı ofisinə yox, İrəvandakı ofisə tabedir. Bu da yolverilməzdir". Bu fakt Qırmızı Xaç Komitəsinin nüfuzunun eroziyası deyilmi? Beynəlxalq axtarışda olan cinyətkar Vaqif Xaçaturyanın Azərbaycan ərazisindən çıxardılmasının iştirakçısı olmaq istəyən Qırmızı Xaç Komitəsi fəaliyyətinin tərəfsizliyini, dürüstlüyünü bundan sonra necə təsdiqləyəcək? Ermənilik onun da fəaliyyətini dünyəvi məramdan, niyyətdən uzaqlaşdırıb deyəsən...

Haqlı sual dünyanın iri dövlətlərinə ünvanlanıb: "Biz separatizmə qarşı mübarizə aparmaqda Ukraynaya kömək etmək üçün Avropa və Qərbin necə birləşdiyini görürük. Bəs bizə gəldikdə nəyə görə bizim separatizmə qarşı mübarizəmizə fərqli yanaşma sərgilənir?". Cavab verməyə siyasi qətiyyət, dürüst siyasi mövqe, öz dövlətinə və dövlətlərə ehtiram lazımdır. Cavab bəşəri niyyətlər üçün gərəklidir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Şuşada "Euronews" televiziya kanalına verdiyi müsahibə Azərbaycan dövlətçiliyinin qətiyyətinin təsdiqi kimi tarixləşdi...

**Kapitan**
**Ceyhun CƏFƏRLİ**
**"Azərbaycan Ordusu"**

## Azad edilmiş ərazilərdə xidməti-döyüş fəaliyyəti yüksək səviyyədə təşkil olunur



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən, azad edilmiş ərazilərdə dislokasiya olunan hərbi hissələrdə şəxsi heyətin xidməti-döyüş fəaliyyətinin yüksək səviyyədə təşkili üçün bütün imkanlar yaradılıb. Yüksək döyüş hazırlığı, intizam və sağlam mənəvi-psixoloji mühitin yaradılması bölmələrin qarşısında qoyulan ilkin tələblərdən biridir.

Hərbi hissələrdə mövcud sosial-məişət şəraiti şəxsi heyətin nəzəri-praktiki biliklərinin artırılması, döyüş növbətçiliyinin tələblərə uyğun aparılması və mədəni-asudə vaxtının səmərəli təşkili üçün zəmin yaradır.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, azad edilmiş ərazilərimizdə yerləşən bölmələrdə qoşun xidmətinin təşkili günün nizam qaydalarına uyğun olaraq davam etdirilir. Hərbi qulluqçularla nəzəri və praktiki məşğələlər keçirilir, bununla yanaşı, döyüş növbətçiliyinə cəlb edilən şəxsi heyətə təhlükəsizlik qaydaları çatdırılır, mövqelərdə ayıq-sayıqlığın yüksək səviyyədə olmasının vacibliyi xüsusi qeyd edilir.

Azərbaycan Ordusunun şəxsi heyətinin peşəkarlığını onun yüksək mənəvi-psixoloji hazırlığı tamamlayır. Bu baxımdan hərbi qulluqçularla mütəmadi olaraq ictimai-siyasi hazırlıq üzrə məşğələlər keçirilir, ölkəmizdə və dünyada baş verən hadisələr haqqında məlumat verilir, onların dünyagörüşünün formalaşdırılmasına diqqət yetirilir.

## Hərbi hissələrin hərtərəfli təminatına xüsusi diqqət yetirilir



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət və qayğısı nəticəsində ordunun maddi-texniki təminatı yüksək səviyyədə təşkil olunub.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, ən son texnologiyaya əsaslanan avadanlıqlarla təchiz olunmuş qazanxanalar sayəsində şəxsi heyət daimi isti su ilə, eləcə də camaşırxanalarda quraşdırılan paltaryuyan və quruducu maşınlar vasitəsilə istənilən vaxt təmiz paltar və yataq dəstləri ilə təmin edilir.

Şəxsi heyətin düzgün və keyfiyyətli qidalanması ən vacib məsələlərdən biridir. Bunun üçün hərbi hissələrin yeməkxanalarında hər bir şərait yaradılıb. Hərbi hissələrə gətirilən təzə və keyfiyyətli ərzaq məhsulları soyuducu kameralarda saxlanılır. Şəxsi heyət üçün normaya uyğun olaraq gündə üç dəfə yemək hazırlanır. Menyuda milli mətbəximiz üstünlük təşkil edir.

Müdafiə Nazirliyi rəhbərliyinin qış dövrünə hazırlıqla bağlı müvafiq tapşırıqlarına əsasən xüsusilə hərbi hissələrin sərt iqlim və kəskin relyefli ərazilərdə yerləşmə məntəqələrində bütün növ təminat vasitələri, o cümlədən ərzaq, əşya, döyüş sursatı və yanacaq-sürtgü materialları üzrə ehtiyat yaradılır.

Hərbi qulluqçuların xidməti-döyüş fəaliyyətinin yüksək səviyyədə təşkili və aparılması üçün zəruri olan təminat məsələləri daima diqqət mərkəzində saxlanılır.

## Düşərgə toplanışına cəlb edilən kursantlarla praktiki məşğələlər keçirilir



Heydər Əliyev adına Hərbi İnstitutun tədris planı və proqramına uyğun olaraq düşərgə toplanışına cəlb edilən kursantlarla praktiki məşğələlər keçirilir.

Keçirilən məşğələlər zamanı azimutla hərəkət, ərazilərin mina və partlamamış döyüş sursatlarından təmizlənməsi, patrul xidmətinin təşkili, eləcə də meşəlik ərazilərdə aşkar edilən şərti düşmənin pusquya salınaraq məhv edilməsi üzrə tapşırıqlar icra edilib. Həmçinin kütləvi qırğın silahlarından mühafizə üzrə dərslərdə də kursantlar fəal iştirak ediblər.

Düşərgə toplanışı zamanı çalışmaların yerinə yetirilməsində əsas diqqət kursantların praktiki və döyüş vərdişlərinin təkmilləşdirilməsinə yönəldilib.

*Təlim*

# Yüksək döyüş hazırlığı sabahkı qələbələrin müjdəçisidi

44 günlük Vətən müharibəsində yaxından iştirak edən hərbi hissədəyik. Qarşılaşdığımız hərbçilərin üzündən zəfər ovqatı süzülürdü. Bu da təbiidir, çünki onlar uzun illərdən bəri erməni işğalçılarının əsarətində qalmış torpaqlarımızı azad etmək üçün döyüşüblər. Şəxsi heyət üzərinə düşən müqəddəs borcu şərəflə, ləyaqətlə yerinə yetirmək üçün irəli atılıblar ki, gələcək nəsillərin üzünə dik baxsınlar, illərdən bəri ağrı-acılarını yaşadıqları Qarabağ müharibəsinə birdəfəlik son qoysunlar, torpaqlarımızı işğalçılardan təmizləsinlər.

Bu müqəddəs amal uğrunda döyüşdüklərinə görə sərrast atəşlə erməni işğalçılarını məhv ediblər. Üzərlərinə düşən tapşırıqları bacarıqla yerinə yetiriblər. Yurdumuzun azadlığı uğrunda gedən döyüşlərdən hərbi hissəyə qələbələrlə, zəfərlərlə dönüblər.

Hərbi hissədə həmsöhbəti olduğumuz bütün zabit və əsgərlərin simasında qürur və iftixar gördük. Çünki onlar qalib ordunun qalib əsgər və zabitləridir. Torpaqlarımızın azad olunmasında igidlik və qəhrəmanlıq göstəriblər. Cəsarətləri ilə adlarını qəhrəmanlıq tarixinin səhifələrinə yazıblar.

- Bizim üçün çox qürurludur ki, hərbi hissənin şəxsi heyəti Vətən müharibəsində böyük igidliklə, qəhrəmanlıqla döyüşüb, - deyə zabit Vasif Həsənov bizimlə söhbətə başladı. - Qəhrəmanlıqla vuruşduqlarına görə də düşməndən üstün oldular, onu diz çökdürərək qalib gəldilər. İnamla deyə bilərəm ki, zabit, gizir, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçular və əsgərlərimiz əks-hücum əməliyyatlarında üzərlərinə düşən döyüş tapşırıqlarının öhdəsindən bacarıqla gəldilər. Şəxsi heyət dərk etdi ki, uzun illərdən bəri erməni işğalında qalmış torpaqları azad etmək onun ən müqəddəs vəzifəsidi. Bu müqəddəs vəzifələri yerinə yetirən hərbi qulluqçularımız 44 gün davam edən Vətən müharibəsində düşmənin 30 ilə yaxın davam edən işğalına son qoydular. Uğurlu döyüşlərin nəticəsində erməniləri illərdən bəri möhkəmləndirdikləri mövqelərdən geri qovdular. Döyüşlər zamanı ermənilərin onlarla canlı qüvvəsini məhv etdilər, döyüş texnikasını sıradan çıxartdılar. Son nəticədə onları ağır məğlubiyyətə uğratdılar. Torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlər zamanı düşmən nə qədər cəhd göstərsə də, qüvvələrimiz qarşısında dayanmağı bacarmadı. Çünki hərbçilərimiz qələbə naminə döyüşürdülər. İkinci Qarabağ müharibəsindən hərbi hissəyə qalib qayıtmış zabit və əsgərlərimiz müasir silahların və hərbi texnikaların sirlərinə dərindən yiyələnmək üçün bu gün yenə də təlim keçir, yeni döyüş vərdişlərinə yiyələnirlər. Onlar səmərəli keçən dərs və məşğələlərdə döyüş hazırlıqlarını artırırlar. Daim artan döyüş hazırlığı isə sabahkı qələbələrin müjdəçisidi.

Şərəfli döyüş yolu keçmiş zabitlə zəfərə köklənmiş söhbətdən ürəyimiz qürurla doldu, daha da böyük qələbələrə sevinəcəyimizə əmin olduq. Bu əminlik ruhumuza hopdu, könlümüzə sığal çəkdi. Deməli, təlim-məşqlərdə daim döyüş hazılığını artıran Azərbaycan şəxsi heyətin ən ülvi amalı və məqsədi 44 günlük Vətən müharibəsində qazanılmış qələbələri daha da böyük uğurla davam etdirməkdir. Ovqatımı bürüyən bu müqəddəs niyyətin, ülvi amalın qəlbimdə yaratdığı xoş duyğuların təsiri altında düşünürəm ki, həmişə müharibədə döyüş hazırlığı yüksək olanlar üstün gələrək rəqibini məğlub edir, zəfər qazanır. Bu, tarixin sınaqlarından çıxmış danılmaz həqiqətdir. Vətən müharibəsində də məhz hərbçilərimizin döyüş hazırlığı yüksək olduğuna görə, düşməni məğlub etdilər, yağıları yurdumuzdan qova-qova, xalqımıza qələbə sevinci yaşatdılar. Sevincini yaşadığımız bu qələbələrin, zəfərlərin davamlı olması üçün hərbi qulluqçularımız təsdiq olunmuş döyüş hazırlığı planına uyğun olaraq dərs keçir, bacarıq və peşəkarlıqlarını artıraraq daha güclü, daha məğlubedilməz olurlar. Məğlubedilməzlik isə həmişə qələbəni təmin edir, zabitə, əsgərə başucalığı gətirir.



Təlim keçən şəxsi heyətə yaxınlaşdıq. İlk həmsöhbətimiz olan polkovnik-leytenant Qafqaz Əsgərov dedi ki, bu gün məşğələ keçən şəxsi heyətin əksəriyyəti Vətən müharibəsində iştirak ediblər. Döyüşlər zamanı onlar düşmən hədəflərini dəqiq atəşlə məhv edərək, qəsbkarlara məğlubiyyət acısını yaşadıblar. Yurdumuzun azadlığı uğrunda gedən döyüşlərdə iştirak edən hərbi qulluqçularla hamımız fəxr edirik. 44 günlük Vətən müharibəsində qazanılan qələbə bizi çox sevindirir, amma arxayınlaşdırmır. Çünki arxayınlıq yüksək döyüş hazırlığı ovqatına mənfi təsir göstərə bilər. Şəxsi heyət döyüş hazırlığının yüksək olması üçün daim məşq edir, yeni qələbələr qazandıracaq vərdişlərə yiyələnir. Təcrübəli zabitlərimiz məşğələ prosesində 44 günlük Vətən müharibəsində qazandığımız təcrübədən də bəhrələnirlər. Bu amil məşğələləri daha da səmərəli edir. Əsgərlərimiz hərbi bilikləri böyük həvəslə mənimsəyirlər. Bu gün inamla deyə bilərəm ki, hərbçilərimiz həm mənəvi-psixoloji, həm də döyüş hazırlığı yüksək səviyyədədir. Şəxsi heyət günün istənilən vaxtı döyüş tapşırığını yerinə yetirməyə hazır və qadirdir. Fikir verirsinizmi, əsgərlərimiz məşğələlərdə necə həvəslə, maraqla iştirak edirlər. Bu Vətənə olan sevgidən, yurda olan bağlılıqdan, düşmənə olan nifrətdən irəli gəlir. Məşğələlərdə həvəslə, maraqla iştirak etdiklərinə görə gündən-günə "Qrad" qurğusunun sirlərini öyrənən əsgərlərimizin döyüş hazırlığı yüksəlir. Təcrübə və səriştələri artdıqca daha bacarıqlı olurlar. Daim artan təcrübə və səriştə isə onlara qarşıdakı xidmətlərində uğurlar vəd edir.

Qalib ordunun qalib əsgərinin təlim-məşğələsini izlədik. Döyüş maşınının komandiri müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Əziz Allahverdiyev məşğələnin mövzusunu heyət nəfərlərinə ətraflı izah edirdi. Mövzuya uyğun olaraq qurğuda lazım olan hissə və detalları göstərirdi. Heyət nəfərləri isə təlimin gedişinə diqqət kəsilərək, məşğələnin mövzusunu daha da dərindən öyrənməyə çalışırdılar. Sonra çavuş Ə.Allahverdiyev keçirilən dərslərlə bağlı heyət nəfərlərinə suallar verdi, mövzuları onlardan soruşdu. Əsgərlər heç bir çətinlik çəkmədən verilən sualları cavablandırdılar. Bütün bunlar onu göstərir ki, daim döyüş hazırlığını artıran heyət nəfərləri dərsə maraqla qulaq asır, mövzuları dərindən mənimsəyirlər.

Çavuş Əziz Allahverdiyev dedi ki, bu gün əsgərlərimiz ixtisas hazırlığına uyğun olaraq "Döyüş maşınının tuşlanması" mövzusunu məşq edirlər. Şəxsi heyət tapşırıqları bacarıqla yerinə yetirir, üzərlərinə düşən vəzifələri cəld və çevik hərəkətlərlə icra edirlər. Çox sevindirici haldır ki, hərbi hissəmizin şəxsi heyəti Vətən müharibəsində böyük hünər və qəhrəmanlıq göstərdi. Uğurla başa çatan döyüşlərdən sonra işğalçılardan həm torpaqlarımız azad olundu, həm də şəhidlərin qisası alındı. Xalqımıza böyük sevinc bəxş edən qələbənin qazanılmasında döyüşlərdə iştirak edən bütün zabit, gizir, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçular və əsgərlərimizin payı var. Düşmən üzərində qazanılan qələbə ordumuzun güc və qüdrətindən xəbər verir. Məşğələ üçün ayrılmış vaxtın hər dəqiqəsindən səmərəli istifadə edərək hərbi bilik və döyüş vərdişlərini dərindən mənimsəməyə çalışırıq. Onu yaxşı bilirik ki, döyüş hazırlığı yüksək olan əsgərin nəsibi yalnız uğur və qələbədir.

- İxtisasım tuşlayıcıdır. Döyüşlərdə tuşlayıcının üzərinə böyük vəzifələr düşür, - deyə əsgər Süleyman Əzizov söhbətimizə qoşuldu. - İxtisasımı dərindən bildiyimə görə təlim-məşqlərdə çətinlik çəkmirəm. Vətən müharibəsi zamanı uğurlu döyüşlər bir daha sübut etdi ki, hərbi qulluqçularımızın hazırlığı yüksək səviyyədədir. Cəsur hərbçilərimiz bir daha dünyaya göstərdilər ki, Azərbaycan Ordusu yenilməzdir, məğlubedilməzdir. Keçirilən təlim-məşqlərdə fəal iştirak edərək, daim döyüş hazırlığımızı artırırıq. İnanıram ki, biz qəhrəmanlıq tariximizə yeni səhifələr yazacağıq.

Heyət nəfərləri əsgərlər Zülqədər Rəşidov, Namiq Atayev və başqaları ilə də söhbət etdik. Onlarla söhbətimizdən bir daha əmin olduq ki, təlim keçib daim döyüş hazırlıqlarını artıran bu oğullar gələcək döyüşlərdə üzərlərinə düşən bütün tapşırıqların öhdəsindən yüksək peşəkarlıqla gələcək, düşmən hədəflərinə həmişə dəqiq atəş zərbələr endirəcəklər. Həm təlim-məşqlərdən, həm də döyüşlərdən böyük uğurlarla dönəcəklər.

Təlimdə döyüş hazırlığını artıran əsgərlərlə maraqlı görüş və söhbətimiz yekunlaşdı. Məşğələ isə mövzuya uyğun olaraq öz axarı ilə davam edirdi. Əsgərlər təlim-məşqlərdə fəal iştirak edərək daha da böyük uğurlar qazanmaq üçün döyüş hazırlıqlarını artırırdılar. Onların cəld və çevik hərəkətlərinə diqqət kəsildikcə, bir daha əmin olduq ki, nə qədər çətin olsa da, şəxsi heyət məqsəd və məramına nail olacaq. Zəfərləri və qələbələri ilə xalqımızı sevindirəcəklər. Sələflərinin uğurla başladıqları yolları xidmətlərində qazandıqları yeni-yeni uğurlarla davam etdirəcəklər.

**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**
**foto**
**C.CƏFƏROVUNDUR**

# Azərbaycanın XİN rəhbəri ATƏT-in sədri ilə bölgədəki mövcud vəziyyəti müzakirə edib

Avqustun 10-da xarici işlər naziri Ceyhun Bayramov ilə Şimali Makedoniyanın xarici işlər naziri və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) fəaliyyətdə olan sədri Buyar Osmani arasında telefon danışığı olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, telefon danışığı zamanı ATƏT çərçivəsində əməkdaşlıq məsələləri, Azərbaycan və Şimali Makedoniya arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyi, Azərbaycan-Ermənistan sülh prosesi və bölgədə mövcud vəziyyət müzakirə olunub.

Nazir Ceyhun Bayramov Ermənistan tərəfindən Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı artan təxribatların sülh prosesinin irəliləməsinin qarşısının alınmasına hesablandığını diqqətə çatdırıb. Xüsusilə, Ermənistanın bölgədə sabitliyin bərqərar edilməsi, erməni sakinlərin Azərbaycan cəmiyyətinə reinteqrasiya səylərinə təhdid törədən Laçın sərhəd-keçid məntəqəsinə qarşı törətdiyi təxribatlarının bu ölkənin sülh prosesində maraqlı olmadığını göstərdiyi bildirilib.

Ceyhun Bayramov Ermənistanın "bölgədə gərgin humanitar vəziyyət", "blokada" kimi iddialar irəli sürməsinin heç bir əsasının olmadığını, erməni sakinlərin tələbatlarının ödənməsi üçün tərəfimizdən təklif olunan "Ağdam-Xankəndi" yolunun fəaliyyətinə maneələr törədilməsinin də məsələnin Ermənistanın təqdim etdiyi kimi humanitar xarakterli deyil, siyasi olduğunu nümayiş etdirdiyini diqqətə çatdırıb.

Ermənistanın 30 ilə yaxın hərbi işğalının, postmünaqişə dövründə isə beynəlxalq hüquq normalarına və öhdəliklərinə zidd olaraq Laçın yolundan hərbi məqsədlər, təbii resurslarımızın Ermənistana daşınması, mina təhdidinin davam etdirilməsi məqsədilə istifadə etməsinin qəbuledilməzliyi, bu təxribatçı addımların qarşısının alınması üçün Laçın sərhəd-buraxılış məntəqəsinin əhəmiyyəti nazir C.Bayramov tərəfindən qeyd olunub.

Telefon danışığı zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

*Tarix yazan oğullar*

# Adı qəlblərdə əbədiləşən qəhrəman

*Mahmudlu Babək Süleyman oğlu da tarix yazan oğullarımızdan biridir. O da Biləsuvar rayonundan olan şəhidlərin şərəf dolu döyüş yoluna sadiq qalaraq, 44 günlük Vətən müharibəsinin əfsanəvi döyüşçülərindən birinə çevrildi.*




Babək 27 noyabr 1995-ci ildə Biləsuvar rayonunda Birinci Qarabağ müharibəsi veteranı Süleyman Mahmudovun ailəsində dünyaya göz açmışdı. Ona Vətən sevgisi böyüyüb boya-başa çatdığı ailəsindən, elindən, obasından aşılanmışdı. İgidliyi, qorxmazlığı, döyüşkənliyi atasından öyrənmişdi. Atası Süleymanın Şuşadan, Laçından, Qubadlıdan, Füzulidən, Ağdərədən keçən şərəfli döyüş yolunu qəhrəmanlıqla davam etdirən Babək yaşıdlarının və silahdaşlarının qəlbində xalqımızın sərkərdə oğlu əsl Babək kimi qaldı.

2011-ci ildə Biləsuvar rayon Nizami Gəncəvi adına 1 saylı tam orta məktəbin 9-cu sinfini bitirən Babək Sumqayıt Texniki Kollecinə qəbul olur. Orta ixtisas üzrə aldığı təhsili başa vurduqdan sonra Vətənə övladlıq borcunu vermək üçün hərbi xidmətə yollanır. Hərbi xidmət dövründə nümunəvi, intizamlı, vətənpərvər əsgər kimi komandirlərinin, şəxsi heyətin hörmətini qazanır. Vətənə namusla, ləyaqətlə xidmət edərək alnıaçıq, başıuca doğmalarının yanına qayıdır. Sonra Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlı bölmələrində hərbi xidmətini davam etdirmək məqsədilə qəbul olunmuş qaydalara müvafiq imtahan verir. İmtahandan yüksək nəticələr əldə edən Babək müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi Vətənə xidmətini davam etdirir. Manqa komandiri Babək Mahmudlu xüsusi kursu da uğurla başa vurur. Naxçıvanda keçirilən Türkiyə və Azərbaycan birgə hərbi təlimlərində atıcılıq yarışlarında birincilik qazanır.

27 sentyabr 2020-ci ildə erməni təxribatı ilə başlayan 44 günlük Vətən müharibəsinin ilk günlərindən Vətən sevdalısı Babək döyüşə atılır. Onun erməni işğalçılarına qarşı ilk döyüşləri Cəbrayılda olur. Babəkin döyüş yolu Cəbrayıldan Zəngilana, Qubadlıya, Xocavəndə, Şuşaya qədər uzanır. Ağır keçən döyüş əməliyyatlarında hünər, qəhrəmanlıq göstərir. Xeyli sayda düşmən qüvvəsini məhv edir. Oktyabrın 31-də Şuşa uğrunda gedən ağır döyüşlərin birində şəhidlik zirvəsinə ucalan Babək doğma yurduna əbədiyyət qazanaraq dönür. Azərbaycan Ordusunun şəhid hərbi qulluqçusu Mahmudlu Babək Süleyman oğlu noyabrın 1-də Biləsuvar rayonunda torpağa tapşırılır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamları ilə Babək Mahmudlu döyüşlərdə göstərdiyi cəsarət və hünərə görə ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Hərbi xidmətlərə görə", "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

Şəhid Babək Mahmudlunun yaşadığı küçə indi onun adını daşıyır. Türkiyə Cümhuriyyətində "Palmali" yeni gəmilərindən birinə "Babək Mahmudlu" adı verilib.

Cəsur döyüşçü Babək də ölümü ilə ölümsüzlüyə qovuşaraq Azərbaycanın 44 günlük Vətən müharibəsində hünəri ilə tarix yazdı. Atalar gözəl deyib: "İgid ölər, adı qalar". Babək kimi cəsur oğulların adı həmişə qəlblərdə yaşayacaq.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

# Eli igidlər tanıdır



Erməni işğalından azad edilmiş ərazilərimizdə dislokasiya olunan "N" hərbi hissəsinin döyüş növbətçiliyi aparan bölməsində əsgərlərlə həmsöhbət olduq. Bölmə sərhədlərimizin müdafiəsində yıxılmaz qala kimi dayanıb. Bu qalanı qorxmaz, mərd Azərbaycan əsgərləri qoruyurlar. Bölmədə gördüyüm şərait, intizam xidmətin düzgün təşkil olduğundan xəbər verirdi. Şahidi olduqlarımız bir daha sübut edir ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən, işğaldan azad edilmiş ərazilərimizdə dislokasiya olunan bölmələrin xidməti-döyüş fəaliyyəti yüksək səviyyədə təşkil edilir. Çətin relyefli və yüksək dağlıq ərazilərdəki mövqelərdə yerləşən bölmədə günün nizam qaydalarına uyğun olaraq sutka boyu döyüş növbətçiliyi təşkil olunur, fasiləsiz xidmət aparılır. Həmçinin şəxsi heyətin döyüş qabiliyyətinin daha da artırılması, eləcə də döyüşə hazırolma və mənəvi-psixoloji vəziyyətin daim yüksək səviyyədə saxlanılması istiqamətində zəruri tədbirlər həyata keçirilir. Dövlətçiliyinə və millətinə bağlı, Hərbi Anda sadiq olan gənclərimiz də hərbi xidmət keçməyin vacibliyini yaxşı dərk edərək, Vətən qarşısında borcun öhdəsindən layiqincə gəlirlər. Nümunəvi xidmət edərək ərazi bütövlüyümüzün müdafiəsində inamla dayanırlar. Onların xidmətləri ilə yanaşı, qətiyyətli sözləri də bu inamın bir daha təsdiqi oldu.

**Əsgər Allahverdi Qasımov:** Hər gənc kimi, mən də əsgər olmağın qürurunu yaşayıram, həm də bu qürurum ikiqatdır. Çünki işğaldan azad olunan torpaqlarımızda döyüş növbətçiliyi aparıram. Bunun qürurlu tərəfi ilə yanaşı, məsuliyyətini də yaxşı başa düşürəm. Vətənimizin keşiyində inamla dayanmışam. Hər döyüş növbətçiliyində bu ərazilərin azadlığı uğrunda şəhid olan qardaşlarımızı düşünürəm. Onların qəhrəmanlığından, igidliyindən ilham alıram. Canları bahasına azad etdikləri torpaqlarımızın müdafiəsində ayıq-



sayıq dayanıram. Təlim və məşqlərdə qazandığımız biliklərimiz döyüş növbətçiliyinin təşkilində köməyimizə çatır. Belə ki, gecə və gündüz müşahidələri zamanı kəşfiyyat hazırlığında əldə etdiyimiz biliklərdən istifadə edərək, gecəgörmə cihazları olmadan belə hər hansı bir səsin hansı istiqamətdən gəldiyini, hansı məsafədə olduğunu asanlıqla təyin edirik. Mühəndis hazırlığında öyrəndiklərimizdən istifadə edərək, səngərdə müxtəlif cür manevrləri düzəldə bilirik. Atəş hazırlığında silahımızın təyinatını, taktiki-texniki xüsusiyyətlərini mənimsəmişik. Hər kəs öz silahından sərrast atəş açmağı bacarır. Bir sözlə, biz yüksək döyüş hazırlıqlı əsgərlər kimi formalaşmışıq və ərazi bütövlüyümüzü inamla qoruyuruq.

**Əsgər Məmməd Həsənov:** Əsgəri xidmət mənəviyyat borcu bilirəm. Vətən ülvi varlıqdır. Bizi qoynunda bəsləyir, torpağının nemətləri, havası, suyu ilə qidalandırır. Vətən hər birimiz üçün anadır. Əsgər olmaq da hər birimiz üçün vətəndaşlıq, ana Vətənimizə övladlıq borcudur. Bu borcun öhdəsindən layiqincə gəlmək mənəviyyat borcumuzdur. Hərbi xidmət hər birimizə dözümlülük, mərdlik, qorxmazlıq kimi, əsil kişiyə xas xüsusiyyətlər qazandırır. Burada həm yüksək mənəvi-psixoloji və döyüş hazırlıqlı əsgərlər kimi, həm də cəmiyyətə yararlı vətəndaşlar kimi formalaşırıq. Bütün məsuliyyətimlə çalışıram ki, bu borcun öhdəsindən layiqincə gələrək Vətənimə layiqli əsgər olum. Komandirlərimiz bizə hərbi bilikləri, döyüş hazırlığının sirlərini öyrədir, vətənpərvərlik aşılayır, həmçinin qayğılarımızla da yaxından maraqlanırlar. Tez-tez fərdi söhbətlər aparır, mənəvi-psixoloji hazırlığımızın yüksək tutulması istiqamətində işlər görürlər. Buranın çətin relyefi və mürəkkəb iqlimi var. Lakin heçnə bizə çətinlik törətmir. Çünki bütün təminatlarımız qaydasındadır. Döyüş növbətçiliyini də yüksək səviyyədə aparırıq. Bir an belə qarşı tərəfi nəzarətsiz qoymuruq. Tək amalımız nümunəvi xidmət etmək, sərhədlərimizin qətiyyətli müdafiəsini təşkil etməkdir.

**Əsgər Dönməz Həmdəmov:** Vətənimiz qəhrəmanlar diyarı, igidlər məskənidir. Xalqımız tarix boyu Vətən uğrunda canından keçmiş, doğma yurdunu göz bəbəyi kimi qorumuş öz mərd oğul və qızları ilə tanınıb. Biz də qəhrəman əcdadlarımızın davamçılarıyıq. Mərdlik, igidlik genlərimizə hopub. Vətən sevgimizdən güc alaraq torpaqlarımıza keşik çəkirik. Müqəddəs vəzifələr yerinə yetirdiyimizi bilirik. Buna görə də hər birimiz intizamlı olub, komandirlərimizin dediklərinə



sözsüz əməl edirik. Biz bilirik ki, qarşımızda dayanan düşmən xaindir, təxribata əl atmaq üçün məqam gözləyir, tez-tez atəşkəsi pozur. Lakin bizim ayıq-sayıqlığımız hər dəfə onları susdurur. Burada xidmət etdiyim üçün mən də fərəhlənirəm. Əsgər yoldaşlarımla və komandirlərimlə birlikdə düşmənə keçilməz çəpər çəkmişik. Burada keçirtdiyim günləri heç zaman unutmayacağam. Silahdaşlarımla milli bayramlarımızı, ad günlərimizi və digər xoş günləri qeyd edirik. Çiyin-çiyinə verib döyüş növbətçiliyi aparırıq. Bu anların hər biri daim qürurla xatırlayacağım xatirələr kimi yaddaşıma yazılıb. Komandirlərimizin öyrətdiyi hərbi vərdişlər müqəddəs vəzifələrimizin öhdəsindən uğurla gəlməyə kömək edir. Artıq döyüş vərdişlərinə yiyələnən bacarıqlı əsgərlər kimi formalaşmışıq. İstənilən döyüş tapşırığını qələbə ilə tamamlamağa hazır və qadirik.



**Əsgər Rəvan Sadıqov:** Artıq tərxis olunmağıma bir neçə ay qalıb. Vətəni qorumaq kimi müqəddəs vəzifənin öhdəsindən uğurla gəlib, ailəmin yanına başıuca qayıdacağım üçün qürurluyam. Hərbi sirlərə sadiq qalacağıma, Vətənimə layiqli övlad olacağıma, onun mənafeyini, suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini şərəflə qoruyacağıma and içdiyim günü heç vaxt unutmaram. Komandirlərimizin zəhməti nəticəsində hərbi bilik və vərdişlərə yiyələndik. Keçirilən məşğələlərin, təlimlərin nəticəsində bacarıqlı əsgərlər kimi formalaşmışıq. Şükürlər olsun ki, bu gün xidmətimlə o qüruru doğrulda bilirəm. Fəxr edirəm ki, bu müqəddəs vəzifənin öhdəsindən layiqincə gəlmişəm. Xidmətə təzə başlayan silahdaşlarıma da intizamlı, məsuliyyətli olmalarını, ayıq-sayıq xidmət etmələrini arzulayıram. Biz qalib və rəşadətli Azərbaycan Ordusunun əsgərləriyik. 44 günlük Vətən müharibəsində ordumuzun qazandığı tarixi zəfərdən ilhamlanaraq, yüksək döyüş ruhunda xidmətimizi davam etdiririk.

**Baş leytenant**
**Mahmud MÖHBALIYEV**
**"Azərbaycan Ordusu"**

*Düşüncələr*

# Göyləri çiynində saxlayır Şuşa!..



*Heydər Əliyev: "Şuşasız Qarabağ, Qarabağsız isə Azərbaycan yoxdur"*

Göz açıban gördüyü, yurd bilib sevdiyi kəndin-şəhərin, Vətən deyib bağır basdığı dağların, yaylaqların-oylaqların, çeşmələrin-bulaqların ayrılıq sıxıntılarından ürəyi burxulanların, qəlbinə xal düşənlərin intizarını, intizardan da ötə həsrətini sözlə ifadə etmək mümkünmü? Bəs ayrılıq 30 il çəkibsə, bu 30 ildə günlər il qədər uzanıbsa?..

Torpaqdan ayrı düşməyə od dərdi, ocaq dərdi, köz dərdi deyənlər el dərdini öz dərdi bilir; həsrət sözün tükəndiyi yerdi, yoxsa sözün dilə gəldiyi yer?

**...dərdi dara,**
**Daraq al dərdi dara.**
**Əlimdə imkan olsa,**
**Çəkərdim dərdi dara!**

deyənlərin ruhunun şəhəri Şuşa həsrətin başlandığı yeriydi, indi həsrətin sonlandığı yerdi.

Mən də bilirəm ki, Şuşa dağlıq ərazidi, yerin təkindən dağ görkəmində dikəlib. Şuşanı Qarabağ xanı Pənahəli xan 1756-57-ci illərdə saldırıb. Pənahabad, Şuşa qalası, Şuşa, Qala adları ilə tanınıb. XVIII əsrdə dövrəsinə böyük, davamlı sədd çəkilib...

Şuşa demişik, şüşə demişik, Şuşa-şüşə deyirik. Şuşada şüşəlik, şüşədə Şuşalıq görənlərin hamısına munis olan, doğma olan, əziz olan Şuşa-şüşə qafiyəsi yüz illərlə düşüncələrin göyqurşağına dönüb. Bu səsləşmə qətiyyətin, sədaqətin, etibarın mehrabı olub. Hərdən işığı dolaşığa düşən dan yerinə, hərdən buludlardan sıyrılan şimşək nərəsinə dönən bu müqəyyəd qafiyə zaman-zaman yadların gözlərini qorxudub; Məhəmməd Həsən xan Qacar, Fətəli xan Əfşar, Ağa Məhəmməd şah Qacar bu qala-şəhəri ala bilməyib.

Əfsanəmi, həqiqətmi? - şəhərin adı ilə makedoniyalı İsgəndərin qılıncına qılınc çəkən igid türk sərkərdəsi Şunun inşa etdirdiyi Şu qalası arasında bağlılıq var. Şüşə qalam, Şuşa qalam, yağılığı kündə eləyən tişə qalam 1992-ci ilin mayına kimi bəd niyyətlə gələnləri sıyırma qılıncla, xoş niyyətlə gələnləri duz-çörəklə qarşılamışdı....

Şuşanın dağları görünür. Ağ yelənli boz dumanı həmişə Şuşanın dağlarına yapıncı bilmişəm. Həmişə mənə elə gəlib ki, bir ağız "Qarabağ şikəstəsi" eşidincə sözün möcüzəsindən, səsin möcüzəsindən yapıncıduman dağların çiyinlərindən sürüşəcək. Bu düşüncələr içində Şuşa işğaldan azad edildən az sonra - dekabrın 10-da Bakıda keçirilən Zəfər paradında Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dediklərini xatırladım: "...Azərbaycan torpaqları illərdir həsrət qaldığı Tərtər çayının sularına qovuşmuşdur. Şuşanın dağlarının başındakı duman artıq dərdli deyil. Girov qalmış Xarıbülbül artıq azaddır və daha gözəl açacaqdır. Köndələnçay artıq daha coşqun axacaq. Araz daha güclü oxuyacaq. "Qarabağ şikəstəsi"ni oxuyan nəfəslər daha yüksək, daha güclü olacaqdır". Bu duyğusal kəlmələr də Şuşaya, Şuşanın timsalında Azərbaycana sevgidi; ürəyinin gözü ilə baxanlar Şuşanın Azərbaycanın heyrət işığı olduğunu aydınlığıyla görür...

Boz yapıncısı çiyinlərindən sürüşmüş Böyük Kirsin eynini açıq görürəm. Yan-yörəsindən yad ayaqları çəkilib, sinəsinə yad nəfəsi dəymir, könlünü küsdürən kəlmələr eşitmir. Mənə elə gəlir ki, indicə Xan əminin qayıbanə səsini eşidəcəyik:

1991-ci ilin yazın son ayında Şuşada ezamiyyətdəydim. Gördüklərimi yaddaşıma, yaddaşımdam könlümə köçürürdüm. Mənə elə gəlirdi ki, yaxan Gün deyil, niyyətimin işığıdı; "vaxt üstümüzdən yel kimi keçirdi" (Səməd Vurğun). Qırx pilləkənin (Daşaltı çayına aparan dik pilləli yol) yaxasında diqqətimi kolluqlara sığınmış çiçəklər cəlb eləmişdi. Xarıbülbül bilmişdim. Birini dərmək istəmişdim. Kol əlimi qanatmışdı. Bir çiçəklərə baxmışdım, bir kola, bir də əlimin qan xallarına. Kol tanımadığı adama çiçək - Xarıbülbül verməmişdi. Vətənə sədaqətə görə minnətdarlıq kimi kolun başına dolanmışdım. Kolu çiçəyini tanımadığı adama verməyən Şuşanı Ermənistan havadarlarının yardımı ilə 1992-ci il mayın 8-də işğal elədi...

1991-ci ildə əlimi qanadan kol yerindədi, çiçəkləri yoxdu. Çiçəkləri perikmi düşüb, solubsaralıbmı, dərilibmi? - bilmirəm...

Gəncə qapısının içəri tərəfində, Süleymanın çayxanasının yanında iri budaqlı ağac vardı. Budağın ağacın gövdəsiylə birləşdiyi yerə əsən yellər nə vaxtsa narın torpaq qalaqlamışdı, ora necəsə çiçək toxumu düşmüşdü. Toxum cücərmişdi, böyüyüb; ağacın budağının gövdəsiylə birləşdiyi yer o gözəlim çiçəyə dibçək olmuşdu. Maraqla baxmışdım, ünvansız soruşmuşdum: Nə çiçəyidi? Sualıma cavab verən olmamışdı. Özüm cavablandırmışdım: Ona məhəbbət çiçəyi də deyərdim, hekayət çiçəyi də, heyrət çiçəyi də, Şuşaya sədaqət çiçəyi də. Həmin ağacı yerində görməyəndə gözüm alacalandı; "Süleymanın çayxanasının qarşısında neçə on illər yormuş həmin ağac da şəhid olub", - dedim. Kimsə canıyananlıqla dilləndi: "Haqlısan, qardaş...". Çiçək bitirən ağacı bu ağsaqqal da görübmüş. İkimiz də qəhərləndik...

Şuşa işğal ediləndə ermənilər yüzlərlə tarixi abidəni dağıtmışdı. Xan qızı Natəvanın, Üzeyir Hacıbəyovun, Bülbülün tunc büstlərini güllələmişdilər. Sonra satmaq üçün Gürcüstana aparmışdılar. "Yaralanmış" büstlər ermənilərdən pulla alınıb Bakıya qaytarılmışdı. Şuşa işğaldan azad ediləndə onun ilk sakinləri bu büstlər oldu. Qəddarlığın tarixdə də, yaddaşlarda da yaşadılması üçün büstlər bərpa edilməyib.

İkinci Qarabağ müharibəsi başladı. Bu müharibə vətənsevərliyin işğalla, azərbaycançılığın ermənilıklə müharibəsiydi, xalqın müharibəsiydi, ruhun ruhsuzluqla müharibəsiydi...

Şuşa uğrunda döyüşlərdə bütün döyüşçülər iştirak etmək istəyirdi. Hadrutu ermənisizləşdirən ordu hissələrimiz Çanaxçı kəndini işğaldan azad edəndən sonra Laçın dəhlizinə xeyli yaxınlaşmışdı. Bu məsafə top mərmisinin uçuşu uzaqlığından da qısa idi - cəmi 10 kilometr. Ermənilər dağlıq ərazilərdən əks-hücuma keçmişdi, döyüşənlərimizi silah-sursatla, ərzaqla təmin edən yollarda dayanıqlı pusqular yaratmışdı. Ordu hissələrimizin hücumunu Qırmızı Bazar tərəfdən gözləyən düşmən güman edirdi ki, Azərbaycan əsgəri bu istiqamətlərdə yaratdığı keçilməzlik səddini aşa bilməyəcək.

Xocalıyla Xocavəndin arasında, Şuşaya aparan yolun solunda üst-üstə üç daş görünür. Rəngində bir qızartı sezilir. Bu yerlərə yaxşı bələd olan Fazil deyir ki, 44 günlük Vətən müharibəsində buralar da məşəlik olub. Döyüşçülərimiz səssizlikdən keçib düşmənin mövqeyinə yaxınlaşıbmış. Daha on addım... Daha beş addım... Qarşıdan atəşə tutulublar. Üç döyüşçümüz sayı bəlli olmayan düşmənlə atışıb. Solda da düşmən varmış, sağda da. Düşmən əhatəsindəymişlər. Bir anlığa baxışları qoşalaşıb: mühasirəni sürətli həmlə ilə yaraq! Hansı istiqamətə getməyi baxışları yönəldib: Şuşaya sarı! Sonda qələbə vəd eləyən döyüş onları Şuşaya çəkirdi. "Nəfəsimiz də Şuşa üçündü, şəhidliyimiz də", - atışa-atışa Şuşaya sarı irəliləyiblər. Döyüşdə irəliləmək ifadəsi olmur, bu ifadə döyüşə-döyüşə harasa yaxınlaşmaq deməkdi. Mühasirədən çıxa-çıxda döyüşçülərdən biri yaralanıb. Həm döyüşmək, həm də yaralı döyüşçünü döyüşdən çıxartmaq niyyətli döyüş çox çəkməyib; döyüşçülərimiz düşmənin sırasını seyrəltsə də mühasirəni yara bilməyiblər. Mühasirədə olduqlarını bilincə, onlara kömək göndərilib. Döyüşçülərdən birinin son nəfəsi digər döyüşçünün boynunu isindirən qana sarılıb, üçüncü döyüşçünün əli onlara yetməyib...

Köməyə göndərilən döyüşçülərimiz mühasirəni mühasirəyə alıb...

Həmin döyüşdə düşmənin hamısını öldürən döyüşçülərimiz üç döyüşçünün şəhidlik məqamının nişanəsi kimi həmin yerdə üst-üstə üç daş qoyub. Üç ildə yağan yağış, yağan qar, əsən yellər bu daşları bir-birindən ayıra bilməyib. Möcüzədimi? Yox, möcüzə deyil, tarixin (azərbaycançılığın) erməniliyə kinayəsidi..

Belə bir şəraitdə ordu hissələrimizə tarixi borcunu yerinə yetirmək əmri verildi: Şuşanı işğaldan azad etməli! Azərbaycan əsgəri müharibənin ilk günündən bu əmr üçün döyüşürdü. Əmrin icrası xüsusi təyinatlılara tapşırıldı.

Döyüş əmrini qələbə ilə tamamlamaq üçün sıldırımlıq seçildi. Bu seçim qətiyyətin, dözümün, yüksək döyüş əzminin, qələbə ruhunun seçimi idi. Zəmanət - Vətənə sevgi, yüksək döyüş hazırlığı, müharibənin sonuncu gülləsini Şuşada atmaq niyyəti.

400 hərbçi 100 nəfərlik qruplarla Şuşaya sarı dərin dərələr, sıx meşələr keçdi, dağlar aşdı. Döyüşənlərimiz daşların çıxıntılarını nərdivana döndərdilər; onları Şuşa ucalığına ruhun ucalığı aparırdı. Şuşaya çatmaqdaydılar. Yaralıların səsi də, şəhidlərin ruhu da son döyüşün döyüşçüləri olacaqdı...

Sıldırımları, dağ misallı qayalıqları qalxırdılar. Qarşıda Şuşa vardı - qələbə vardı, Zəfər vardı. Rusiyanın "Narodnaya Oborona" jurnalında dərc edilən bir məqalə Şuşa uğrunda döyüşlərin söz görüntüsü kimi tarixləşib: "Belə döyüş, dövlət, Vətən sevgisi görən olubmu? Demək çətindir! Dağ yuxarı, şəhidi çiynində, döyüşə-döyüşə qan, tər içində qalxırdı Azərbaycan Ordusu. Nə yaralısını, nə şəhidini əldən buraxırdı. Nəfəs almadan Şuşaya çıxdılar...". Bu fikir bir hücuma, bir döyüşə, bir döyüşün timsalında ordunun gücünə gerçək (və səmimi!) münasibətdi, heyrətdi. Bu heyrət Azərbaycandan uzaqlarda da minlərin dünyəvi heyrətidi.

Noyabrın 7-si idi. Döyüşürdülər. Əlləri qayalığın son daşlarına toxunanda döyüşçülərdən biri yaralandı. Yoldaşlarının döyüşdən uzaqlaşmaması üçün səsini içinə çəkdi. Əli ilə qanını dayandırmaq istədi. Qan dayanmırdı. Onda qanıyla qayaya "Qarabağ Azərbaycandır!" kəlmələrini yazdı, son nəfəsi bu kəlmələrə sarıldı. Döyüşçülər onu da Şuşaya gətirdilər...

Cıdır düzündə qəribə duyğular yaşadım. 1992-ci ildə buradan Daşaltı kəndinə tərəf daşlar atmışdım. Çatmayacağını bilsəm də, ruhuma təsəlli kimi atmışdım. İndi oradan üzü heyrət mənzərəsinə baxıram. Nə göz doyur, nə könül əl çəkir (Məmməd İlqar). Onda Cıdır düzü çiçəklər xalısıydı, indi çiçəklərin sırası bir qədər seyrəlib. Mənə elə gəlir ki, 28 il burada çiçəklər boy atmayıb. Cıdır düzü Zəfərin qüdrəti kimi özünə qayıtmaqdadı. Çiçəklər yenə könüllər oxşayacaq....

1991-ci ildə Gəncə qapısında ayaq saxlayıb üzüm gələn, ərkim çatan şuşalıların birindən bircə ağız oxuma istəməyə niyyətliydim, ruhumla dinləyiyim "Şuşanın dağları" könlümü tellәndirmişdi. O səsə, oxumaya şükranlıq duası demişdim. İndi eşitdiyim "Segah"ı Vətən müharibəsində şəhid olanların ruhuna salavat bildim. Görəsən, tanımadığım cavanın oxuması haralaracan çatacaq?..

Ruhumuzun şəhəri olan Şuşanın dağlarında daha yad buludlar dolaşmayacaq, yad yellər əsməyəcək, Topxananın ağaclarına, Cıdır düzünün çiçəklərinə yad nəfəsi dəyməyəcək. İsa bulağının sıxıntısı bitəcək...

Göy üzündə bircə əlçim də bulud yoxdu, olsa kirpiklərimlə silərdim...

Sevilməyə qadir olan Şuşa sevdirməyə də qadirdi - təbiəti sevdirir, gözəlliyi sevdirir, heyrəti sevdirir, sədaqəti sevdirir, tarixi sevdirir, ...

Şuşada özünü göylərə yaxın bilirsən...

Göyləri çiynində saxlayır Şuşa. Dünya buna da heyrətlənir...

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

**Mövzu:** Döyüş mühafizəsində, döyüş növbəsində, qarovulda və daxili naryadda xidmətin nümunəvi aparılması ordunun yüksək döyüş hazırlığının rəhnidir

**Suallar:**
**1. Döyüş mühafizəsində, döyüş növbəsində, qarovulda və daxili naryadda xidmətin xüsusiyyətləri.**
**2. Bölmənin şəxsi heyətinin qoşun xidmətini yerinə yetirmək üçün hərtərəfli hazırlığa səfərbərliyi.**
**3. Döyüş mühafizəsində, döyüş növbəsində, qarovul və daxili naryadda xidmətin aparılması məsuliyyətli və şərəfli işdir.**

### Döyüş mühafizəsində, döyüş növbəsində, qarovulda və daxili naryadda xidmətin xüsusiyyətləri

Hərbi hissələrin və bölmələrin daimi yerləşmə yerlərində, düşərgələrdə və döyüş şəraitində yüksək döyüş hazırlıqlı olmalarını, qarşıya qoyulmuş döyüş tapşırıqlarını vaxtında və müvəffəqiyyətlə həll etmələrini, mühüm hərbi obyektlərin etibarlı mühafizəsini, bölmələrdə daxili qayda-qanunun saxlanmasını, bölmələrin silah və sursatının, əmlakının qorunmasını təmin etmək üçün döyüş və ümumqoşun nizamnamələrinin tələbləri əsasında müvafiq xidmətlər təşkil olunur. Bu xidmətlər öz xüsusiyyətlərinə görə fərqlənirlər:

- daxili xidmət - hərbi hissələrdə, bölmələrdə, parklarda, tədris müəssisələrində, düşərgələrdə, eləcə də qoşunların yerdəyişməsi zamanı günün nizam qaydalarına ciddi riayət olunması, daxili qayda-qanunun saxlanması, silah və sursatın, digər əmlakın qorunması üçün Silahlı Qüvvələrin Daxili Xidmət Nizamnaməsinə uyğun təşkil edilir;
- qarovul xidməti - Döyüş Bayrağının, silahların, döyüş texnikasının, sursatların, partlayıcı maddələrin və digər əmlakın saxlanıldığı anbarların və s. hərbi obyektlərin etibarlı mühafizəsini və müdafiəsini təmin edir;
- döyüş mühafizəsi və döyüş növbətçiliyi - hərbi hissə və bölmə qarşısında qoyulmuş döyüş tapşırığlarını müvəffəqiyyətlə yerinə yetirmək, döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasını təmin etmək üçün təşkil edilir.

Azərbaycan Respublikasının Ermənistanın işğalına məruz qalmış ərazilərdə Ermənistan silahlı qüvvələrinin qalan silahlı tör-töküntülərin, terrorçu qruplaşmaların qaldığı bir dövrdə Azərbaycan Ordusunun hərbi hissələri düşmənlə bilavasitə təmas vəziyyətində döyüş mühafizəsi və döyüş növbətçiliyi xidmətlərini aparır, torpaqlarımızın düşməndən etibarlı müdafiəsi kimi şərəfli və eyni zamanda, çox çətin bir vəzifəni yerinə yetirirlər. Bu isə həmin hərbi hissələrin şəxsi heyətində yüksək döyüş hazırlığı, möhkəm intizam, öz postunda ayıq-sayıq xidmət aparmaq, qorxmazlıq, düşmənə nifrət, öz silahına, komandirlərinə inam kimi döyüşçü keyfiyyətlərinin tərbiyə olunmasını tələb edir.

Döyüş mühafizəsi və döyüş növbətçiliyinə təyin olunan bölmənin, hər bir hərbi qulluqçunun əsas vəzifələrindən biri də təhkim olunmuş döyüş və digər texnikanın, silahların, avadanlıqların həmişə saz, döyüş tapşırıqlarının yerinə yetirilməsinə hazır vəziyyətdə saxlanılmasıdır. Döyüş mühafizəsinə təyin olunan hərbi qulluqçu hər hansı bir ekstremal şəraitdə vəzifə borcunu yerinə yetirməyə özünü hazırlamalıdır.

Bu vəzifələri nümunəvi yerinə yetirmək üçün görülən işlərin əsas məqsədi:

- bölmə və hissələrdə döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasını, qoşun xidmətinin əhəmiyyətini hərbi qulluqçulara ətraflı izah etmək;
- hərbi qulluqçularda yüksək şüurluluq, əqidə möhkəmliyi, siyasi sayıqlıq, qarovul və qarnizon xidmətində, döyüş mühafizəsi və döyüş növbətçiliyində öz vəzifə borclarını dəqiq və qüsursuz yerinə yetirmək üçün şəxsi cavabdehlik hissləri tərbiyə etmək;
- hərbi qulluqçuları qoşun xidmətinə dair sənədləri, təlimatları, müdafiə nazirinin əmrlərini, hərbi nizamnamələri, Azərbaycan Respublikasının qanunlarını dərindən öyrənməyə yönəltmək;
- hərbi nizamnamələrin tələblərinin, qarovul və qarnizon xidməti qaydalarının, döyüş mühafizəsi və döyüş növbətçiliyinin aparılma qaydalarının pozulmasına görə hərbi qulluqçuların məsuliyyətini müəyyənləşdirən hüquq normalarını izah etmək;
- daxili xidmət, qarovul və qarnizon xidmətlərinin yerinə yetirilməsində qabaqcıl təcrübənin öyrənilməsini, ümumiləşdirilməsini və yayılmasını təşkil etmək, qoşunlarda mövcud ənənələri, xidmətdə hünər və qəhrəmanlıq nümunələrini təbliğ etmək;
- qarovula, daxili naryada, döyüş növbətçiliyinə və döyüş mühafizəsinə hazırlıq dövründə və xidmət edərkən hərbçilərlə daha təsirli təlimat və tərbiyəvi xarakterli işlər aparmaq, qabaqcıl təcrübəni komandirlər (rəislər) və şəxsi heyət arasında yaymaq;
- naryadda olan hərbi qulluqçuların maddi-məişət və mədəni tələbatlarının öyrənilib təmin olunmasına qayğı göstərməkdir.

### Bölmənin şəxsi heyətinin qoşun xidmətini yerinə yetirmək üçün hərtərəfli hazırlığa səfərbərliyi

Daxili xidmətə, qarovul və qarnizon xidmətinə hazırlıq prosesində hərbi nizamnamələrin öyrənilməsi, hərbi qulluqçulara nizamnamə tələbləri ilə yaşamaq və xidmət etmək hissi aşılamaq başlıca yer tutur. Bu məqsədlə döyüş və humanitar hazırlıq məşğələlərindən əlavə məqsədyönlü təbliğat işləri aparılır. Bölmələrdə, hissələrdə və gəmilərdə mühazirələr oxunur, konfranslar keçirilir, söhbətlər aparılır. Mövzuların təxmini adları:

"Nizamnamə qaydalarının yerinə yetirilməsində qoşun xidmətinin əhəmiyyəti", "Hərbi nizamnamələr hərbçi həyatının hüquqi və mənəvi normalarının toplusudur" və s.

Komandirlər və şəxsi heyətlə iş üzrə zabitlər gənc əsgər və matroslara nizamnamələrin əsas müddəalarını izah etdikdə onların diqqətini gündəlik naryadda vəzifə borclarını bilmələrinə, gün növbətçisinə və patrula verilən konkret tapşırıqlara cəlb etməlidirlər.

Hərbi qulluqçularda öz vəzifə borclarını qüsursuz yerinə yetirmək üçün lazım olan mənəvi və döyüş keyfiyyətlərinin formalaşmasında ictimai-siyasi hazırlıq dərslərinin böyük rolu var. Ona görə də ictimai-siyasi hazırlıq dərslərində qrup rəhbərləri döyüş mühafizəsində, döyüş növbəsində, qarovul və daxili naryadda xidmətin aparılmasında möhkəm intizamın və yüksək sayıqlığın əhəmiyyətini daha dərindən anlamaqda hərbi qulluqçulara kömək etməlidirlər.

Qoşun xidmətinə dair məsələlər məruzələrdə, söhbətlərdə, divar qəzetlərində və döyüş vərəqələrində işıqlandırılır. Hərbi hissələrdə hər ayın axırında qoşun xidmətinin təhlili aparılır, yekunlaşdırılır və hərbi hissə komandirinin müvafiq əmri ilə elan edilir. Həmin əmrdə qoşun xidmətinin yoxlanılması zamanı aşkar edilmiş nöqsanlar göstərilir, daxili naryad, qarovul, döyüş növbətçiliyi xidmətlərinin aparılmasını yaxşılaşdırmaq üçün tədbirlər müəyyən edilir, eləcə də fərqlənənlərə həvəsləndirmə tətbiq edilir.

### Döyüş mühafizəsində, döyüş növbəsində, qarovul və daxili naryadda xidmətin aparılması məsuliyyətli və şərəfli işdir

Daxili xidmətə təyin olunmuş hərbi qulluqçularla iş aparılarkən yataqxanada, döyüş maşınları parkında, yeməkxanada, hərbi şəhərciyin ərazisində nizamnamə qaydalarına əməl edilməsinə onların cavabdehliyi xüsusi qeyd olunur, lazımi təlim məşğələsi keçirilir və bu məşğələdə yerli şəraitə uyğun yüksək sayıqlıq və döyüş hazırlığını təmin edən amillər öyrənilir. İndiki dövrdə qarovul xidmətinin, döyüş mühafizəsinin və döyüş növbətçiliyinin xüsusi əhəmiyyət kəsb etməsi məşğələdə dinləyicilərə çatdırılmalıdır. Bu isə ondan irəli gəlir ki, düşmən kəşfiyyatçıları ordumuzun döyüş hazırlığı və qoşunların yerləşdiyi məntəqələr haqqında məlumat toplamaq üçün hər cür vasitələrə əl atır.

Hərbi Dəniz Qüvvələrinin gəmilərində növbətçiliyin xüsusi növü - "vaxta" xidməti təşkil olunur. Gəminin və onun mexanizmlərinin idarə olunması şəraitinə nəzarət etmək, düşmənin qəfil hücumu zamanı silah tətbiqini və gəmidə nizam-intizamın gözlənilməsini təmin etmək üçün növbətçi daim sayıq olmalıdır. Qarovul rəisi hərbi hissənin (birləşmənin) anbar, park və maşın (təyyarə, qurğu) dayanacaqlarının və digər mühüm obyektlərin mühafizə postlarına xidmətə təyin olunan şəxslərlə xüsusi iş aparır, onların daha sayıq olmasına daim nəzarət edir.

Qoşunların fəaliyyətində daxili xidmət naryadlarının, qarnizon və qarovul xidmətlərinin xüsusi əhəmiyyəti vardır. Bu xidmətlər hissə və bölmələrin döyüş hazırlığını müəyyən edən müasir tələblər əsasında hərbi nizamnamələrə uyğun təşkil olunur. Daxili naryadın vəzifəli şəxslərinin hazırlığı onların nizamnamə vəzifələrini yerinə yetirmələrini təmin edir. Ona görə də naryada təyin olunan şəxsi heyət öz vəzifə borclarını, müxtəlif şəraitlərdə, məsələn, "həyəcan", "toplanış" siqnalları alarkən, silah-sursat verərkən, səhər baxışı və axşam yoxlamaları apararkən, məşğələ saatlarında hərəkət qaydalarının öyrənilməsinə məsuliyyətlə yanaşmalıdır. Naryada təyin olunan hər bir hərbi qulluqçu nizamnamə üzrə vəzifələrini əsaslı təkrar etməlidir.

Qarovul (vaxta) xidmətinə təyin olunan hər bir əsgər, çavuş bu xidmətin döyüş tapşırığı olduğunu, qarovulda qoyulmuş tapşırıqların yüksək məsuliyyətini şüurlu dərk etməli, nizamnamə qaydalarının hər cür pozulmasına qarşı ciddi mübarizə aparmalıdır.

Qarovulda əsas diqqət Döyüş Bayrağının, saxlancların, parkların mühafizəsinə, eləcə də gecə vaxtı və pis hava şəraitində xidmət aparan şəxsi heyətin təlimatlandırılmasına yönəldilir. Onlar öz vəzifələrini yerinə yetirərkən yüksək sayıqlıq nümayiş etdirməlidirlər.

Qarnizon xidmətinin şəxsi heyəti ilə aparılan işlərin forması və məzmunu qarovul xidmətində olduğu kimidir. Lakin burada hərbi qulluqçulara təlimat keçərkən onların hərbi hissədən kənara çıxması, yerli əhali ilə təmasda olması qeyd edilir və ona görə də onlardan daim sayıqlıq, hərbi sirləri qoruyub saxlamaq, təmkinlilik, nümunəvi xarici görünüş tələb olunur. Ümumiyyətlə, aparılan işlərin əsas məqsədi hərbi qulluqçuları şəraitdən asılı olmayaraq hərbçi şərəfinə layiq xidmət etməyə, Hərbi Andın, nizamnamələrin və komandirlərin (rəislərin) tələblərini dəqiq və qüsursuz yerinə yetirməyə ruhlandırmaqdır.

Bu gün Azərbaycan əsgəri dövlətin qayğısını hər zaman üzərində hiss edərək, xalqdan güc alaraq torpaqlarımızın müdafiəsində ayıq-sayıq dayanır və istənilən silahlı təxribata layiqli cavab verməyə hər an hazırdır. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev Ermənistan ordusunun növbəti silahlı təxribatı ilə Qarabağda baş verən qarşıdurma haqqında demişdir: "... Ermənistan tərəfi növbəti dəfə silahlı təxribata əl atdı. Biz dərhal Qisas əməliyyatı keçirdik. Qisas əməliyyatının çox təsirli, ancaq qısamüddətli olması onu göstərir ki, bizim gücümüz yerindədir..."

Bir vaxtlar prioritet vəzifəsi ərazi bütövlüyümüzü bərpa etmək olan ordumuz bundan sonra da həmin bütöv və qüdrətli Azərbaycan Respublikasının qorunmasında öz missiyasını layiqincə yerinə yetirəcək. Daim öz xalqının iftixar mənbəyi kimi tarixin şanlı səhifələrində özünə yer tapması üçün hər bir hərbi qulluqçudan ona həvalə edilmiş vəzifələrin məsuliyyətini dərindən dərk etməsi tələb edilir. Yalnız möhkəm hərbi intizama malik olmaqla komandirlərin əmr və göstərişlərini dəqiq və sözsüz yerinə yetirməklə dərslərdə, təlimlərdə və qələcək döyüşlərdə yüksək nəticələr əldə etmək olar.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

*Gənc zabitlərimiz*

# Zabit olmaq arzum gerçəkləşdi



Vətəni vətən edən onun mərd, cəsur oğullarıdı. Erməni vandalları Vətənimizin ayrılmaz hissəsi olan Qarabağa göz dikdiyi vaxtdan xalqımızın igid oğulları silaha sarılaraq doğma torpaqlarımızın müdafiəsinə qalxdılar. Döyüşlərdə nə qədər şəhid versək də, qazilərimiz olsa da, yenə Vətənimizin bütövlüyü, üçrəngli bayrağımızın əbədi dalğalanması naminə hər zaman düşmənə qarşı haqq savaşında öndə oldular. Artıq üç ilə yaxındır doğma Vətənimizin ərazi bütövlüyü bərpa olunub. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında xalqımızın igid, cəsur oğulları ölüm-dirim savaşına atılaraq ən qısa zamanda düşməni məğlub etdilər. Özünü həmişə güclü hesab edən, özü haqqında yaratdığı miflərə güvənərək məğlubiyyəti heç vaxt ağlına gətirmək istəməyən düşmən ordusu cəmi 44 gün ərzində darmadağın edildi. Tarixdə bu cür qısa müddətdə böyük əraziləri azad edən döyüş əməliyyatları çox az olub. Azərbaycan əsgərinin qəhrəmanlığı, şücaəti bir daha göstərdi ki, xalqımız və dövlətimiz heç zaman işğalla barışmayıb.

Biz tez-tez ordumuzun ayrı-ayrı bölmələrində oluruq və orada müxtəlif ixtisaslı zabitlərlə görüşürük. Bu dəfə həmsöhbət olduğum baş leytenant Rəhim Rəhimovdur. Rəhim ali təhsillidir. Gəncə Dövlət Universitetini alman dili ixtisası üzrə bitirib. Müddətli həqiqi hərbi xidmətdən sonra orta məktəbdə müəllim işləmək istəməyib. Əksinə, yenidən ordu sıralarına qayıdaraq zabit kimi şərəfli bir peşənin davamçısı olmaq qərarını verib. Bu arzu, bu istək Rəhimi "Ehtiyat zabit hazırlığı kursu"na gətirdi. Həmin ildən də zabit kimi ordu sıralarında xidmətini davam etdirir. Rəhim deyir ki, zabit olmaq arzum gerçəkləşdi.

Zabit Rəhim Rəhimov həm də 44 günlük Vətən müharibəsinin iştirakçısıdır. 27 sentyabr 2020-ci ildə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ordumuza əkshücum əməliyyatı əmri verəndə ilk döyüşə gedənlər sırasında Rəhimgilin bölməsi də olub. Cəbrayıldan başlayan döyüş yolu Laçın rayonunun Güləbird kəndinə qədər davam edib. Ordumuzun döyüşən bölmələri irəliləyib daha böyük əraziləri azad etdikcə onlarda qələbə əzmi artıb. Düşmən kapitulyasiya aktına imza atmağa aktiv döyüş əməliyyatlarının dayansa da Rəhim işğaldan azad edilmiş ərazilərdə xidmətini davam etdirib.

Baş leytenant R.Rəhimov döyüşlərdəki xidmətlərə görə, Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif olunub.

Zabit R.Rəhimov onu da əlavə etdi ki, onların başlıca məqsədi gənc əsgərlərə təsdiq olunmuş plana əsasən və tərtib edilən dərs cədvəlinə uyğun mövzu və məşğələləri keçməkdir. Vacib bilik və bacarıqları gənc əsgərlərə aşılamağa çalışmaqdır. Onların da başlıca məqsədi, məramı öyrədilənləri daha yaxşı mənimsəməkdir.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

*Fiziki hazırlıq*

## "İdman insanı tək fiziki deyil, eyni zamanda, ruhi cəhətcə də tərbiyələndirir"



44 günlük Vətən müharibəsində igid oğullarımızın dillərə dastan olan, şücaətilə işğaldan azad edilən dilbər güşələrindən birində yerləşən hərbi hissədə şəxsi heyətin fiziki hazırlığının təmin edilməsi üçün yaradılan şəraitlə tanış olduq. Müasir standartlara uyğun qurulan idman şəhərciyi hərbi qulluqçularımızın fiziki cəhətdən sağlam, gümrah, güclü olmalarına şərait yaradır. Gəlişimiz günün nizam qaydalarına uyğun olaraq əsgərlərin fiziki hazırlıq məşğələsi saatına təsadüf etdiyindən onların idmanla məşğul olmalarının şahidi olduq.

- Şəxsi heyət fiziki hazırlıq məşğələsi zamanı idman normativlərini böyük həvəslə və peşəkarlıqla yerinə yetirir, - deyə gizir Şamxal Əlizadə bildirdi. Ordu sıralarına Biləsuvar rayonundan çağırılan Şamxal keçirilən idman məşğələləri barədə bizə geniş məlumat verdi.

"Əsgərlərimiz idman qurğularından yararlanaraq fiziki güclərini artırır, bununla da idman normativlərini yüksək peşəkarlıqla yerinə yetirirlər. 100 və 3000 metr məsafələrə qaçış, turnikdə dartınma, paralel qollarla hərəkət, gövdənin uzanaraq yerdən qaldırılması (pres) və s. normativlər hər bir əsgərimiz tərəfindən rahatlıqla, həvəslə və vaxtında icra olunur. Fiziki hazırlıq məşğələləri əsgərlərimizi təkcə fiziki güclü deyil, həm də qətiyyətli, özünə inamlı, sağlam düşüncəli, gümrah olmalarına köməklik edir. Necə deyərlər, sağlam bədəndə, sağlam ruh olar. Şübhəsiz ki, fiziki cəhətdən güclü olan əsgər döyüş meydanında çətin vəziyyətlərdən qalib çıxacaq. 44 günlük Vətən müharibəsi zamanı igid oğullarımız ürəklərindəki Vətən sevgisinin və qollarındakı gücün köməkliyi ilə sıldırım qayaları, keçilməz yolları asanlıqla keçib doğma torpaqlarımızı işğaldan azad etdilər. Xidmətdə olan əsgərlərimiz bu gün də qəhrəmanlıqları ilə tarix yazan həmin oğulların xidmət yollarını özlərinə nümunə bilirlər, işğaldan azad olunan torpaqlarımızda əsgər olmağın xoşbəxtçiliyini yaşayırlar".

Şəki rayonundan ordu sıralarına çağırılan əsgər Əhməd Əhmədov dedi ki, kiçik yaşlarından idmana böyük maraq göstərib. Həvəskar olaraq idmanın güləş növü ilə məşğul olub. "Hərbi xidmətə gəlməmişdən əvvəl mütəmadi olaraq idmanla məşğul olurdum. Düşünürdüm ki, xidmət zamanı idman etməyə vaxt olmayacaq. Ancaq yanılmışam, burada bizim üçün hər bir şərait yaradılıb. Günün nizam qaydalarına uyğun olaraq hər gün iki dəfə - səhər və axşam idmanla məşğul oluruq. Bu da bizim gün ərzində gümrah olmağımıza, həmçinin fiziki cəhətdən güclü hərbçi kimi formalaşmağımıza kömək edir".

Digər müsahibim isə hərbi xidmətə Masallı rayonundan çağırılan əsgər Yasərağa Ağayev oldu. "İdmanla məşğul olmaq tək insanın sağlamlığını möhkəmləndirmir, həmçinin insanda ruh yüksəkliyi əmələ gətirir, insanın zirək, çevik və dözümlü olmasına səbəb olur. İdman, insanda öz bədənini idarə etmək üçün əzmkarlıq yaradır. Sirr deyil ki, idmanla məşğul olan insanlar daha intizamlı olurlar. Bundan əlavə idman insanda kollektivlik, dostluq, yoldaşlıq, bir-birinə dayaq olmaq və vətənpərvərlik hisslərini də yüksəldir" - deyə əsgər bildirdi.

"İdman insanı tək fiziki deyil, eyni zamanda, ruhi cəhətcə də tərbiyələndirir", - deyə əsgər Ağalar Məmmədli söhbətimizə qoşuldu. "Bizim hər birimiz anlayırıq ki, hərbi qulluqçu gərək sağlam, çevik və güclü olsun. Ona görə də fiziki hazırlıq saatlarında və asudə vaxtlarımızda bizim üçün yaradılan bu gözəl şəraitdən maksimum yararlanmağa çalışırıq. Gündəlik müəyyən məsafəni qaçır, turnikdə dartınma və digər alətlərdə normativləri yerinə yetiririk. Bütün bunların nəticəsində zəif uşaqlar da sağlam və güclü bir cavana çevrilirlər".

Ağstafa rayonundan ordu sıralarına çağırılan əsgər Zeynal Həsənovun da idmana böyük həvəsi var. Ən çox idmanın boks növünə maraq göstərən Zeynal mülki həyatda müəyyən qədər bu idman növünün sirlərinə yiyələnib. Əsgər tərxis olduqdan sonra daimi idmanla məşğul olacağını bildirdi.

"Respublikada gənclərin idmanla məşğul olmaları üçün bütün lazımi şəraitlər yaradılıb. Hər il yeni-yeni stadionlar, idman zalları və üzmə hovuzları açılaraq idmansevərlərin ixtiyarına verilir. Ordumuzda da idmanla məşğul olmaq üçün hər bir şərait yaradılıb. Bizim üzərimizə düşən vəzifə isə fiziki hazırlıq məşğələlərində bütün gücümüzlə iştirak etmək, komandirlərimizin verdiyi tapşırıqları layiqincə yerinə yetirə bilməkdən ibarətdir. Fiziki cəhətdən hazırlıqlı olan hərbi qulluqçu qarşıya qoyulmuş çətin tapşırıqları asanlıqla yerinə yetirməyə qadirdir. Bizim ordumuza qələbə, qalibiyyət yaraşır. Qalib olmaq üçün isə hər zaman güclü olmaq lazımdır. Bunun üçün də hər birimiz güclü ordunun güclü əsgərləri olmaq üçün var qüvvəmizlə çalışmalıyıq. "

**Baş leytenant**
**Oruc MUSTAFAYEV**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Bayden Konqresdən Ukraynaya 13 milyard dollar hərbi yardım istəyib



ABŞ Prezidenti Cozef Bayden Konqresdən Kiyevə 13 milyard dollar hərbi yardım istəyib.

Bu barədə "The Washington Post" məlumat yayıb.

Məlumata görə, ABŞ lideri, bundan əlavə Ukrayna və digər ölkələrə əlavə iqtisadi və təhlükəsizlik yardımı üçün 8,5 milyard dollar ayırmağı da xahiş edib.

Ümumilikdə Bayden Konqresdən 40 milyard dollar məbləğində əlavə maliyyə istəyib. Bu məbləğə ABŞ-da təbii fəlakətlərin aradan qaldırılması üçün 12 milyard dollar, sərhədlərin mühafizəsi üçün isə 4 milyard dollar da daxildir.

## Finlandiya ABŞ-la müdafiə sahəsində əməkdaşlığı gücləndirir



Finlandiya ABŞ-la müdafiə sahəsində əməkdaşlıq haqqında sazişi müzakirə edir.

Bu barədə "Yle" yayım portalı bildirib.

"Müzakirə olunan sazişin parlamentdə təsdiqi üçün üçdə iki səs tələb oluna bilər. Finlandiyanın NATO-ya üzvlüyü üçün bu tələb olunmurdu", - portal qeyd edir.

Razılaşmanın məqsədi ABŞ-ın Finlandiyadakı hərbi obyektlərini və ərazilərini, məsələn, təlim, silahların saxlanması və texnikaya qulluq üçün təmin etməkdir.

Sənəd başqa dövlətin qoşunlarına Finlandiyada hərbi təlimlər zamanı olduğundan daha uzun müddət qalmağa imkan verəcək.

## Nigeriyada silahlı hücum nəticəsində 21 nəfər öldürülüb



Nigeriyada dini qarşıdurmaların baş verdiyi Plateau əyalətində silahlı atışma baş verib, 21 nəfər öldürülüb.

Bu barədə "ABC News" məlumat yayıb.

Məlumatda Plateau əyalətinə gələn bir qrup silahlı şəxsin hücum həyata keçirdiyi bildirilib.

Nigeriya Hökuməti tərəfindən sabitliyi təmin etmək məqsədilə əraziyə hərbçilər göndərilib.

Qeyd edək ki, son üç ayda əyalətdə baş verən dini qarşıdurmalar nəticəsində 300-dən çox dinc insan həyatını itirib.

## Türkiyədə 5,3 bal gücündə zəlzələ baş verib, xəsarət alanlar var



Türkiyənin Malatya vilayətində baş verən zəlzələ nəticəsində dağıntı və xəsarət alanlar var.

Bunu Türkiyənin daxili işlər naziri Ali Yerlikaya bildirib.

Onun sözlərinə görə, hazırda itkilər qeydə alınmayıb. "Bir qəzalı bina dağılıb. Qorxu və təlaşdan hündürlükdən tullanma nəticəsində 22 nəfər yüngül xəsarət alıb", - deyə nazir qeyd edib.

Bildirib ki, səlahiyyətli qurumlar hazırda ərazidə araşdırma aparır.

**AZƏRTAC-ın materialları əsasında**

*Əsgərin tribunası*

# Biz əmin əllərdəyik

Bir aydan artıqdır hərbi hissədəyəm. Hərbi andiçmə gününə sayılı günlərimiz qalır. Hazırlığımız uğurla davam edir. Əsgər olmaq, hərbi forma geyinmək hər birimizin uşaqlıqdan istəyi olub. Atam birinci Qarabağ döyüşlərinin iştirakçısı olub, müharibə veteranıdır. Qardaşımla mənə tez-tez döyüş xatirələrindən danışır, xalqımızın necə mərd, igid oğulları olduğunu deyirdi. Təhsilimizi başa vuran kimi, ilk məqsədimizin hərbi xidmət keçmək olduğunu vurğulayırdı. Bir sözlə, bizi hərbi vətənpərvərlik tərbiyəsində böyüdürdü. Bakalavr və magistr təhsilimi başa vurub hərbi xidmətə gəldim. Ordumuzun sosial şəraitinin, təminatlarının yüksək səviyyədə olduğunu eşidirdim. Hərbi hissədə bunların canlı şahidi oldum. Əvvəlcə onu deyim ki, hərbi hissənin kollektivi arasında sağlam mühit, səmimi və mehriban münasibət var. Yeni gələn hər kəslə komandir heyəti yaxından maraqlanır, fərdi söhbətlər aparırlar. Bizə göstərilən yüksək diqqəti hərbi hissəyə gələn ilk gündən hiss etmişik. İlk gün Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin nümayəndəsi bizi hərbi hissəyə təhvil verdi. Hərbi hissədə ilk öncə uçot-qeydiyyat işləri aparıldıqdan sonra psixoloqlarla görüş oldu. Sonra tibbi yoxlanışdan keçdik və əşya anbarına yollandıq. Burada hər birimizə tam komplekt hərbi geyim forması təqdim olundu. Həmçinin yuyunma ləvazimatları da verildi. Sonra bölməmizə yollandıq. Komandir heyəti və əsgər yoldaşlarımızla tanışlıq oldu. Hərbi hissənin sosial-məişət şəraitinin yüksək səviyyədə olduğuna,



yataqxanalarının, yeməkxanasının və digər iaşə obyektlərinin müasir avadanlıqlarla təmin olunduğunu gördük. Gördüklərimizdən bir daha əmin olduq ki, xidmətimizi uğurla keçmək üçün hər cür şərait yaradılıb. Sonra dərslərə başladıq. Sıra və atəş hazırlığından məşğələlərə cəlb olunduq.

Günün nizam qaydalarına uyğun olaraq bütün fəaliyyətlərimiz səmərəli təşkil olunur. Səylə hərbi andiçmə gününə hazırlaşırıq. Sıra hazırlığının fənn və elementlərini həvəslə öyrənirik. Hər birimiz yüksək əhval-ruhiyyədəyik. Şəraitimizin yüksək olması, komandir heyətinin qayğıkeşliyi hərbi hissəyə tez adaptasiya olunmağımıza zəmin yaradır. Mütəmadi olaraq hərbi həkimlər də bölməmizə gəlir, bizi müayinə edir, isti yay günlərində günvurmalardan qorunmaq üçün təlimatlar verir, səhətində narahatçılığı olanları tibb məntəqəsinə aparıb müalicə edirlər. Analarımızın ürəyi rahat olsun, biz əmin əllərdəyik. Bilirəm ki, onları ən çox düşündürən məsələlərdən biri qidalanmağımızdı. Çünki anam da məni yola salanda, bu məsələdən narahatçılığı bildirmişdi. Yeməyimə, içməyimə diqqət etməyimi dönə-dönə tapşırmışdı. İndi öz anamın timsalında bütün analara səslənirəm ki, narahat olmayın bütün təminalarımız kimi yeməklərdən də çox razıyıq. Qadın aşpazlar bizə milli mətbəximizin gözəl təamlarından hazırlayırlar. Xörəkləri çox dadlı və keyfiyyətli bişirirlər. Evdə yediyimiz yeməklərdən fərqlənmir. Həmçinin gündəlik olaraq mövsümə uyğun meyvələr də verilir. Andiçmə mərasiminə gələndə dediklərimin canlı şahidi olacaqsınız. Bir daha vurğulamaq istəyirəm ki, Azərbaycan Ordusunda gənc əsgər hazırlığı çox yüksək səviyyədə təşkil olunur. Asudə vaxtlarımızda əsgər yoldaşlarımızla söhbətləşəndə, hər kəs burada əsgərlərə yüksək dəyər verildiyini deyir, hərbi hissənin şəraitindən və komandirlərin münasibətindən razılığını vurğulayır.

Bizim üçün yaradılan belə yüksək şəraitə görə dövlət başçımız Ali Baş Komandan cənab İlham Əliyevə minnətdarlığımızı bildiririk. Hər birimiz qalib ordumuzun sıralarında olduğumuz üçün qürur duyuruq. Gənc əsgər hazırlığını uğurla başa vurub erməni işğalına məruz qalan torpaqlarımızda Vətənimizin müdafiəsində dayanmağı arzulayırıq.

**Əsgər**
**Tərlan TAHİRZADƏ**

*Nümunəvi xidmət*

# “Hərbi qulluqçu hər an döyüşə hazır olmalıdır”

*Vətən müharibəsində qazanılan şanlı qələbə hər bir azərbaycanlını qürurlandırdı. Bu zəfər ordumuzun gücünə güc qatdı, xalqımızın ordunun qüdrətinə inamını daha da artırdı. Hər kəs əmin oldu ki, Azərbaycan Ordusu qarşıya qoyulan bütün tapşırıqları icra etməyə qadirdir. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev çıxışlarının birində demişdi: "Azərbaycan Ordusu bu gün nəinki bölgədə, dünya miqyasında güclü ordular sırasındadır - həm hərbi potensialına, həm döyüş qabiliyyətinə, həm də təchizata görə".*

İşğaldan azad olunan torpaqlarımızda yerləşən hərbi hissələrimizin birində xidmət edən əsgər Nihad Süleymanov ilə tanış olduq. O, hərbi xidmətə Göycay rayonundan çağırılıb. Leytenant Ramin Həmidov bildirdi ki, Nihad xidmətə başladığı ilk gündən intizamı, tərbiyəsi ilə əsgər yoldaşlarının və komandirlərinin hörmətini qazanıb. Nihad "Xidmətimin arxada qaldığı müddət ərzində təlimlərdə fəal iştirak etmişəm, hərbi sirlərə dərindən yiyələnmişəm, döyüş vərdişlərini mənimsəmişəm", - deyə söhbətə başladı. Hər bir gəncin, hərbi mundiri geyinən hər bir hərbçinin istək və amalı torpaqlarımızı düşmən işğalından azad etmək idi. 2020-ci il sentyabrın 27-də başlayan əks-hücum əməliyyatı bütün hərbçilərin, qəlbi Vətən sevgisiylə döyünən hər bir vətəndaşın məqsədinə çatmasının başlanğıcı oldu. Qüdrətli ordumuz döyüş meydanında düşməni məğlub edərək torpaqlarımızı işğaldan azad etdi. O illərdə yaşımın az olduğu üçün cismən Vətən müharibəsinin iştirakçısı olmasam da, ruhən cəbhədə döyüşən qardaşlarımızın yanında idim. Bu gün artıq mən də əsgərəm. Bir əsgər olaraq üzərimə düşən vəzifənin məsuliyyətini dərk edirəm. Qələbə qazanaraq torpaqlarımızı işğaldan azad etsək də, hər bir hərbçinin istənilən an döyüşə hazır olmalı olduğunu anlayıram. Bunun üçün də komandirlərimiz tərəfindən keçirilən nəzəri dərsləri diqqətlə dinləyir, hər-



bin bütün sirlərini mənimsəməyə çalışıram", - əsgər bildirdi.

Əsgərimizin sözlərindəki səmimiyyət və qətiyyət məni xeyli qürurlandırdı. İnanıram ki, Vətənini sevən belə əsgərlərimiz var olduqca, ərazi bütövlüyümüz də daimi olacaq.

**Baş leytenant**
**Oruc MUSTAFAYEV**
**"Azərbaycan Ordusu"**

# İdman

## UEFA Avropa Liqası: "Qarabağ" Finlandiyanın "HİK" komandasını 2:1 hesabı ilə məğlub edib



Avqustun 10-da Ağdamın "Qarabağ" klubu UEFA Avropa Liqasının III təsnifat mərhələsinin ilk oyununda Finlandiyanın "HİK" komandası ilə qarşılaşıb.

"Qarabağ" matçın 76-cı dəqiqəsində istəyinə çatıb. Leandro Andrade qapını dəqiq nişan alıb - 1:0.

Görüşün 77-ci dəqiqəsində Antoni Olusanyanın qoluyla "HİK" hesabı bərabərləşdirməyə nail olub - 1:1. Oyunun 85-ci dəqiqəsində Qarabağın heyətində Cuninyonun vurduğu top müdafiəçiyə toxunaraq istiqamətini dəyişsə də, tora daxil olub - 2:1. Tofiq Bəhramov adına Respublika Stadionunda keçirilən görüşdə ağdamlılar 2:1 hesabı ilə qalib gəliblər. Beləliklə, "Qarabağ" komandası UEFA Avropa Liqasının III təsnifat mərhələsinin birinci turunda qələbə qazanmaqla cavab matçı üçün əlverişli imkan yaradıb.

## "Sabah" komandası UEFA Konfrans Liqasında "Partizan" üzərində qələbə qazanıb




Bakının "Sabah" komandası avqustun 10-da UEFA Konfrans Liqasının III təsnifat mərhələsinin ilk oyununda Serbiyanın "Partizan" komandasını qəbul edib.

"Bank Respublika Arena"da keçirilən görüşdə "Sabah" 2:0 hesabı ilə qalib gəlib.

Sabahın heyətində Boyan Letiç 70 və 74-cü dəqiqələrdə fərqlənib.

Qalan dəqiqələrdə hesab dəyişməyib və görüş "Sabah"ın qələbəsi ilə başa çatıb.

Bu komandalar arasında cavab oyunu avqustun 17-də Belqradda keçiriləcək.

## UEFA Konfrans Liqası: "Neftçi" doğma divarlar arasında "Beşiktaş"a uduzub



Avqustun 10-da "Neftçi" klubu UEFA Konfrans Liqasının III təsnifat mərhələsinin ilk oyunları çərçivəsində Bakıda İstanbulun "Beşiktaş" komandası ilə qarşılaşıb.

"Neftçi Arena"da keçirilən oyunda "Ağ-qaralar" 1:3 hesabı ilə uduzublar.

Matçın birinci hissəsində iki qol vuran qonaqlar fasiləyə qələbə ilə yollanıblar. İstanbul təmsilçisinin heyətində Vinsent Abubakar (14) və Cekson Muleka (23) fərqləniblər - 2:0. Qarşılaşmanın 62-ci dəqiqəsində Salih Uçan komandasının üçüncü topunu "Neftçi"nin qapısından keçirib. Oyunun 79-cu dəqiqəsində "Neftçi" vurulan qollardan birinin əvəzini çıxmağa nail olub. Bakılıların fransalı yarımmüdafiəçisi Kilan Lebon adını tabloya yazdırıb - 1:3. Görüş bu hesabla da başa çatıb.

Qeyd edək ki, bu komandalar arasında cavab matçı avqustun 17-də oynanılacaq.

**AZƏRTAC-ın materialları əsasında**

Gizir Məmmədov Rafael İmran oğluna məxsus AD № 0056295 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

---

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Mirzəyev Elvin İbad oğluna məxsus AD № 0058208 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

---

Nəzərov Mehman Yaqub oğluna məxsus № 042852 nömrəli “Müharibə Veteranı” vəsiqəsi itdiyi üçün etibarsız sayılır.


| Baş redaktorun müavini | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| mayor Məhəmməd NƏSİRLİ | Baş redaktor: (012) 510-71-97 (faks);<br>Baş redaktorun müavini: (012) 510-64-27;<br>Məsul katib: (012) 510-71-98;<br>Məktublar şöbəsi: (012) 510-64-28. | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi | baş leytenant Oruc MUSTAFAYEV | Nərimanov Rayon Xəzinədarlığı<br>Kod: 200189<br>VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi Nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.<br>Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz. | Lisenziya № 361<br>Sifariş № 433<br>Nüsxə 4760 |